queeradar
MEDİANIN QUEER MONİTORİNQİ

# Cənubi Qafqaz mətbuatında LGBTİQ+ əleyhinə nifrət nitqinin monitorinqi

**VI buraxılış**
**Yanvar - Dekabr 2024-cü il**

© **QueeRadar** onlayn mətbuatda LGBTİQ+a qarşı ayrı-seçkiliyin müəyyən edilməsi, ictimailəşdirilməsi və onunla mübarizə aparmaq üçün ortaya çıxmış təşəbbüs qrupudur. Məqsəd kuirfobik məzmunu göstərmək, bu məzmunun arxivini yaratmaq və mətbuatda bu mövzunun işıqlandırılmasını və müzakirəsini təkmilləşdirməkdir.

Əlaqə:

www.queeradar.com

E: info@queeradar.com

F: facebook.com/queeradar

IG: @queerradar

# MÜNDƏRİCAT

Giriş ........................................................................ 4
Metodologiya ............................................................. 6
Azərbaycan ................................................................. 7
Ermənistan ................................................................. 16
Gürcüstan ................................................................... 23

# GİRİŞ

“QueeRadar”ın İllik Media Monitorinq Hesabatının 6-cı buraxılışına xoş gəlmisiniz. 2024-cü ili əhatə edən bu hesabat Azərbaycan, Ermənistan və Gürcüstan mediasındakı mənzərəni əks etdirir, LGBTİQ+ mövzusunun bu ölkələrdə necə işıqlandırılmasını və əksər hallarda gündəmdən necə silinməsini nəzərdən keçirir. Bu monitorinq də əvvəlki buraxılışlarımız kimi medianın rolunun vacibliyinə olan inamımıza əsaslanır. Mətbuada deyilənlər, hətta deyilməyənlər belə ictimai rəyə təsir edir, siyasətə dair müzakirələrə yol açır və kuirlərin həyatına və təhlükəsizliyinə birbaşa təsir göstərir.

Ötən il Cənubi Qafqaz üçün son dövrlərin ən repressiv illərindən biri oldu. Bir zamanlar regionun islahatlara açıq ölkəsi kimi tanınan Gürcüstan isə dünyanın digər bölgələrindəki avtoritar tendensiyalarla səsləşən genişmiqyaslı anti-LGBTİQ+ qanunlar qəbul etdi. Ermənistanda müəyyən islahat təşəbbüsləri görünsə də, LGBTİQ+ vətəndaşları əsas hüquqi müdafiə mexanizmlərindən məhrumdurlar. Ümumilikdə region elə kritik bir həddə çatıb ki, burada kuirlərin həyatı sadəcə marjinallaşdırılmır, hətta getdikcə daha çox kriminallaşdırılır, patolojiləşdirilir (yəni kuirlik psixoloji və ya tibbi anormallıq kimi çərçivələnir) və senzuraya məruz qalır.

2024-cü ildə Azərbaycanda mətbuat azadlığı sahəsində vəziyyət daha da pisləşib. “Sərhədsiz Reportyorlar” təşkilatının tərtib etdiyi “2025-ci ildə Mətbuat Azadlığı İndeksi”nə əsasən, Azərbaycan üç pillə geriləyərək 180 ölkə arasında 167-ci yerdə qərarlaşıb. Bu göstərici mətbuat azadlığının və müstəqil jurnalistikanın davamlı şəkildə aşınmasının bariz əlamətidir. Təxminən 30 jurnalist həbs edilib, tənqidi mövqedə olan əsas media qurumları isə fəaliyyətlərini ya məhdudlaşdırmağa, ya da tamamilə dayandırmağa məcbur olublar. Bu repressiya dalğası prezident və parlament seçkiləri ilə üst-üstə düşüb — belə dövrlərdə hakimiyyətin ictimai diskursa nəzarəti gücləndirmək cəhdləri artır. Azərbaycan həmçinin “ILGA-Avropa”nın “Göy qurşağı xəritəsi”ndə cəmi 2.25% göstərici ilə son sıralarda yer tutub. Bu nəticə ölkədə kuir insanların hüquqi tanınma və müdafiədən tamamilə məhrum olduğunu göstərir.

Sərhədin o tayındakı Ermənistanda da vəziyyət birmənalı deyil. Ölkə beynəlxalq mətbuat azadlığı reytinqlərində bir qədər irəliləyiş göstərib, vətəndaş cəmiyyəti və beynəlxalq tərəfdaşların iştirakı ilə media qanunvericiliyi sahəsində islahat müzakirələri aparılıb. Lakin bu irəliləyiş hələ ki sual altındadır. 2024-cü ildə jurnalistlərə qarşı 160-dan çox hücum qeydə alınıb ki, bunların əksəriyyəti siyasi iğtişaşlar və polis zorakılığı ilə əlaqələndirilib. LGBTİQ+ vətəndaşlar üçün isə əsas problem hüquqi müdafiəsizlik olaraq qalır. Ayrı-seçkiliyə qarşı qanunvericilik nə cinsi oriyentasiya, nə də gender kimliyini nəzərdə tutur. Zorakılığın bir çox forması, xüsusən də məişət zorakılığı, cəzasız qalmağa davam edir.

Gürcüstan isə 2024-cü ilin oktyabrında keçirilən, olduqca mübahisəli parlament seçkisindən sonra siyasi böhranın yeni mərhələsinə qədəm qoydu. Seçkinin nəticələri ölkədə repressiv mühitin yaranmasına və artmaqda olan beynəlxalq təcridə gətirib çıxardı. “Xarici təsirin şəffaflığı” və “Ailə dəyərləri” haqqında qəbul edilən qanunlar ifadə azadlığını ciddi şəkildə məhdudlaşdırdı, jurnalistlərə təzyiq və senzura gücləndi, vətəndaş cəmiyyəti üçün mövcud olan məkan daha da daraldıldı.

2024-cü ildə qəbul edilən “Ailə dəyərləri” haqqında qanun gender adaptasiyasına dair səhiyyə xidmətlərini (bura hormon terapiyası, əməliyyatlar və psixoloji məsləhət kimi tibbi xidmətlər daxildir), eynicinslilərin övladlığa uşaq götürməsini, eləcə də kuirlərin ictimai sferada öz varlıqlarını ifadə etməsini (“Pride” tədbirləri və göy qurşağı bayraqlarının nümayişi də daxil olmaqla) qadağan etdi. Bu qanunun qüvvəyə minməsindən cəmi bir gün sonra trans aktrisa Kesaria Abramidzenin qətlə yetirilməsi kuir vətəndaşlar üçün dəhşətli mesaj oldu: onların varlığı nəinki arzuolunmazdır, hətta təhlükə altındadır. Baş verənlərin fonunda Gürcüstan “ILGA-Avropa”nın “Göy qurşağı xəritəsi”ndə tarixinin ən aşağı göstəricisini əldə edib. Avropa İttifaqı da daxil olmaqla, bir sıra beynəlxalq müşahidəçilər tərəfindən ölkədə demokratik mühitin pisləşməsi ilə bağlı həyəcan təbili çalınmağa başlayıb. “Sərhədsiz Reportyorlar” təşkilatının sonuncu “Dünya Mətbuat Azadlığı İndeksi”ndə isə Gürcüstan ötən illə müqayisədə 11 pillə geriləyərək 114-cü yerə enib.




***Şəkil 1.*** *ILGA-nın 2025-ci il Göy Qurşağı Xəritəsindən çıxarılan bu müqayisəli məlumat Cənubi Qafqaz ölkələri üzrə xalları göstərir: Azərbaycan – 2.25%, Ermənistan – 9.16% və Gürcüstan – 11.88%. "ILGA-Avropa"nın Göy Qurşağı Xəritəsi hər il 49 Avropa ölkəsini LGBTİQ+un insan hüquqlarına birbaşa təsir edən qanunları və siyasətləri əsasında 0%-dən (insan hüquqlarının kobud şəkildə pozulması, diskriminasiya) 100%-ə qədər (insan hüquqlarına hörmət, tam bərabərlik) miqyasında sıralayır. Xəritə hər bir ölkəni yeddi kateqoriya üzrə qiymətləndirir: bərabərlik və ayrı-seçkiliyin olmaması; ailə; nifrət cinayəti və nifrət nitqi; genderin qanuni tanınması; interseks bədən bütövlüyü; vətəndaş cəmiyyəti üçün şərait; və sığınacaq.*

Rəqəmsal platformalarda baş verən qlobal dəyişikliklər mövcud yerli böhranları daha da dərinləşdirir. 2024-cü ildə ABŞ-ın texnologiya nəhəngi "Meta", "Facebook" və "Instagram" kuir istifadəçilər üçün müdafiəni əhəmiyyətli dərəcədə azaltdı. Bir vaxtlar icma standartlarını pozan nifrət nitqinə indi "siyasi fikir azadlığı" adı altında icazə verilir. İcma quruculuğu, aktivizm və təhlükəsizlik baxımından bu platformalara güvənən azərbaycanlı və regiondakı digər fəallar üçün Meta şirkəti tərəfindən geriyə doğru atılan bu addım təkcə texniki yox, həm də ekzistensial xarakter daşıyır.

Belə bir şəraitdə "QueeRadar"ın fəaliyyəti daha böyük əhəmiyyət kəsb edir. Bizim media monitorinqimiz sadəcə statistika və açar sözlərdən ibarət deyil. Biz vurulan zərərin sənədləşdirilməsi, media subyektlərinin cavabdehliyə cəlb olunması və kuir həyatların təhrif olunmasına və əhəmiyyətsizləşdirilməsinə qarşı alətlər təqdim edilməsi üzərində işləyirik. Bu 6-cı buraxılışımızda yerli tədqiqatçıların dəstəyi ilə Cənubi Qafqaz mediasını dərindən təhlil etmişik. Bu sərhədlərarası baxış bizə regiondakı təmayülləri, ortaq riskləri və həmrəylik nümunələrini görməyə imkan verir.

Bu hesabatı jurnalistlər, tədqiqatçılar, fəallar və Cənubi Qafqazda media etikası və kuir hüquqları uğrunda fəaliyyət göstərən hər kəsə faydalı bir resurs kimi təqdim edirik. Bu hesabat özündə həm də emosional yük daşıyır. Burada sənədləşdirilmiş bəzi materiallar narahatlıq doğura bilər. Lakin sərt reallıqlarla üz-üzə gəlməklə biz ictimai həyatda mövcudluğumuzu, eləcə də kollektiv gücümüzü və ədaləti bərpa etməyə doğru yol açdığımızı düşünürük.

# METODOLOGİYA

Bu bölmədə geniş auditoriyalı onlayn media orqanlarında LGBTİQ+ mövzularına dair yazıların hansı tezliklə dərc olunduğu və bu yazılarda LGBTİQ+ların necə təsvir edildiyini müəyyən etmək məqsədilə istifadə olunan metodologiya təsvir edilir. Araşdırma 2024-cü ilin yanvar–dekabr aylarını əhatə edir.

*Mətbuat orqanlarının seçimi*

QueeRadar media mühitini hərtərəfli təhlil etmək məqsədilə Azərbaycanda fəaliyyət göstərən 21, Ermənistan və Gürcüstanın hər birində isə 10 media orqanını monitorinq obyektinə çevirib. Seçilmiş media orqanları aşağıdakı meyarlar əsasında müəyyən olunub:

- Vebsaytın mövcudluğu
- Geniş auditoriyaya çıxış
- İctimai-siyasi məzmunun işıqlandırılması

*Açar sözlərə əsaslanan axtarış*

QueeRadar müəyyən edilmiş açar sözlərdən istifadə etməklə LGBTİQ+ ilə bağlı xəbər və məqalələri müəyyənləşdirmək və bu materiallarda LGBTİQ+ların necə təsvir olunduğunu qiymətləndirmək üçün axtarış aparıb. Axtarış üçün istifadə olunan əsas açar sözlər bunlardır: “lezbiyan”, “gey”, “biseksual”, “trans”, “interseks”, “cinsi oriyentasiya”, “kuir”, “azlıq”, eləcə də hər üç ölkədə LGBTİQ+ şəxslərə qarşı istifadə edilən təhqiredici ifadələr (“mavi”, “petux”, “üzdəniraq” və s.)

*Məlumatların toplanması və təhlili*

İl boyu davam edən araşdırma çərçivəsində “QueeRadar” tərəfindən LGBTİQ+ məsələlərinə toxunan media materialları diqqətlə toplanaraq arxivləşdirilib. Müəyyən edilən xəbərlər, məqalələr və köşə yazıları təhlil üçün sistematik şəkildə qruplaşdırılıb. Bu materiallarda LGBTİQ+ların mediada təmsilçiliyi qiymətləndirilib; həm müsbət, həm mənfi təsvirlər, eyni zamanda nifrət nitqi, ayrı-seçkilik və stiqma hallarının olub-olmamasına baxılıb. Həmçinin LGBTİQ+ mövzularının hansı tezliklə gündəmə gətirildiyi müəyyən edilib və bu məsələlərin media gündəmindəki yeri təhlil olunub.

*Məhdudiyyətlər*

Müxtəlif media orqanlarını əhatə etməyə cəhd etsək də, bu təhlil LGBTİQ+ ilə bağlı yayımlanmış bütün materialları əhatə etmir. Araşdırma yalnız konkret olaraq seçilmiş media orqanlarının saytlarına köklənir.

*Materialları ətraflı təhlil etmək üçün aşağıdakı suallar əsas götürülüb:*

- Mətn daxilində LGBTİQ+ların hüquqları pozulurmu?
- Mətndə LGBTİQ+ baxış bucağına yer verilirmi, yoxsa əsasən LGBTİQ+-a qarşı olan rəylər tirajlanır?
- Materialın əsas informasiya mənbələri kimlərdir? Jurnalistlər müxtəlif mənbələrdən istifadə ediblərmi?
- LGBTİQ+ları təsvir etmək üçün hansı ifadələrdən istifadə olunub?
- Materialda LGBTİQ+ların üzləşdiyi sosial və siyasi şəraiti əks etdirən kontekstə yer
- verilibmi?
- Mətn LGBTİQ+ şəxslərə qarşı qərəzli münasibət nümayiş etdirirmi?

# AZƏRBAYCAN

2024-cü ildə Azərbaycanın iqtidaryönlü mediası əvvəlki illərdən bəri müşahidə olunan kuirfob xarakterli materiallar dərc etməyə davam edib. Bununla belə, LGBTİQ+ mövzuları getdikcə daha çox siyasiləşmiş narrativlər çərçivəsində təqdim olunub.

Fevral ayında İlham Əliyevin yenidən prezident seçilməsi ilə yekunlaşan prezident seçkiləri zamanı hökumətyönlü mətbuat orqanları xüsusilə LGBTİQ+ ilə əlaqəsi olan seçki müşahidəçilərini və fəalları hədəfə alıblar. Bu cür məqalələrdə müşahidəçilərin gender kimliklərini xüsusi vurğulamaqla, onların vətəndaş iştirakçılığını etibarsızlaşdırmağa çalışıblar.

Mart ayında artan repressiyalara və müstəqil jurnalistlərə qarşı genişmiqyaslı həbslərə baxmayaraq, Bakıda Beynəlxalq Qadınlar Günü münasibətilə ənənəvi “8 Marş” etiraz aksiyası keçirilib. Əvvəlki illərdə olduğu kimi, etirazçılar gender əsaslı zorakılıq, qadın qətlləri, kuir şəxslərə qarşı ayrı-seçkilik və nifrət cinayətləri ilə bağlı tələblər səsləndiriblər. Aksiya xüsusilə güclü polis nəzarəti və təzyiqlər altında baş tutub.

Yay aylarında Azərbaycan və Fransa arasındakı gərginlik (xüsusilə də rəsmi Parisin Ermənistana diplomatik dəstəyi səbəbindən) əvvəlki illərlə müqayisədə daha da dərinləşib və bu vəziyyət mediaya da sirayət edib. Xüsusilə Paris Yay Olimpiya Oyunları ilə bağlı dərc edilən materiallar kuirfob ifadələrlə zəngin olub. Başlıqlarda mütəmadi olaraq təhqiramiz ifadələr işlədilib və yazılanların çoxu səhvən trans qadın kimi təqdim edilən əlcəzairli boksçu İman Xəlifiyə yönəlib. Trans olması iddiasının rəsmi şəkildə təkzib edilməsinə baxmayaraq, yerli media onunla bağlı sensasiyalı xəbərlər dərc etməyə davam edib.

Gürcüstanda LGBTİQ+ hüquqlarını ciddi şəkildə məhdudlaşdıran qanunun qəbulu və trans qadın Kesaria Abramidzenin qətli də Azərbaycan mediasında geniş əks olub. Hər iki hadisə əsasən nifrət doğuran, kuirfob baxış bucağından təqdim olunub. Bir çox hökumətyönlü mətbuat orqanları Gürcüstanda qəbul edilən qanunu müsbət qiymətləndirərək bu qərarı dəstəkləyən müsahibələr dərc edib. Xəbər başlıqlarında “Gürcüstan gender dəyişikliyini qadağan edir” kimi transfob ifadələrdən istifadə olunub.

Noyabr ayında Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi də kuirfob tonlarla işıqlandırılıb. Azərbaycan mediası fürsəti əldən buraxmayaraq, Trampın diskriminativ mövqeyini vurğulayıb, yerli anti-LGBTİQ+ düşüncə tərzini daha da gücləndirmək üçün onun bəyanatlarına tez-tez istinad edib. Bəzi şərhlərdə isə onun hərəkətləri açıq şəkildə təqdir olunub.

Nəticə etibarilə, 2024-cü ildə Azərbaycan mediası LGBTİQ+ vətəndaşların yaşadıqları reallığın işıqlandırılması sahəsində əhəmiyyətli bir addım atmayıb. Müstəqil media ənənəvi olaraq bu mövzunu daha balanslı şəkildə təqdim etsə də, 2024-cü ildə LGBTİQ+ məsələlərinə dair xəbərlərin ciddi dərəcədə azalması müşahidə olunub. Bu azalmanın əsas səbəblərindən biri 2023-cü ilin noyabrından başlayaraq hökumətin müstəqil jurnalistikaya qarşı həyata keçirdiyi intensiv repressiyalardır. Həmin vaxtdan bəri müstəqil media orqanlarından təxminən 30 jurnalist müxtəlif ittihamlarla həbs edilib. Bu repressiya dalğası bir çox jurnalisti susmağa və ya ölkəni tərk etməyə məcbur edib, nəticədə inkluziv materialların sayı kəskin şəkildə azalıb. Artan institusional təzyiqlər nəticəsində əvvəllər LGBTİQ+ haqlarına yer ayıran media qurumları bu istiqamətdə fəaliyyətlərini davam etdirə bilməyiblər.

Eyni zamanda, kuir kimliklər hökumətyönlü mediada əsasən fərqli fikirləri gözdən salmaq, ayrı-ayrı şəxsləri ləkələmək və xarici hadisələri ənənəvi əxlaq və ayrı-seçkilik prizmasından təqdim etmək üçün alçaltma və manipulyasiya vasitəsi kimi istifadə olunub.

## Monitorinq nəticələri

Əvvəlki illərdən fərqli olaraq, 2024-cü ildə Azərbaycanda həm hökumətyönlü, həm də tənqidçi mediada ölkə daxilində LGBTİQ+ şəxslərin hüquqları barədə materiallara çox az yer verilib. Bu mövzuya toxunan azsaylı yazılarda isə LGBTİQ+ məsələləri əsasən xarici kontekstdə, xüsusilə

Fransa, Gürcüstan və ABŞ çərçivəsində təqdim olunub. Müstəqil media bu beynəlxalq hadisələri ümumiyyətlə neytral yanaşma və faktlara əsaslanan şəkildə işıqlandırsa da, hökumətyönlü mətbuat bu mövzulardan siyasi vasitə kimi istifadə edib, açıq-aşkar qərəzli və manipulyativ yanaşma sərgiləyib.

Azərbaycan və Fransa arasında yaranan diplomatik gərginlik fonunda hökumətyönlü mediada Fransa rəhbərliyini gözdən salmaq məqsədilə LGBTİQ+ mövzularında işlənmiş çoxsaylı məqalələr dərc olunub. Məsələn, dövlət dəstəyi ilə fəaliyyət göstərən media qurumları xəbər kontekstinə aidiyyəti olmasa belə, Fransa hökumətinin iki açıq kimlikli kuir nümayəndəsinin seksual oriyentasiyasını xüsusi vurğulayaraq, alçaldıcı ifadələrlə təqdim ediblər. 2024-cü il Paris Yay Olimpiya Oyunlarının işıqlandırılması da oxşar ritorika ilə müşayiət olunub.

2024-cü ilin oktyabrında Gürcüstanda qəbul edilən LGBTİQ+ əleyhinə qanun layihəsi də yerli mediada əsas mövzulardan birinə çevrilib. Azərbaycan hökumətinin ideoloji mövqeyinə uyğun gələn bu qanun hökumətyönlü media orqanlarında xüsusi canfəşanlıqla işıqlandırılıb. Təhlil edilmiş 158 məqalədə qanunun parlamentə təqdimatından ratifikasiyasına qədər bütün mərhələlərə yer verilib. Müstəqil media bu prosesi daha balanslı və informativ şəkildə təqdim etsə də, hökumətyönlü media qanunu dəstəkləyən şəxslərlə müsahibələr yayımlayıb və bu mənbələrdə LGBTİQ+ kimliklər milli-mənəvi dəyərlərə təhlükə kimi təsvir olunub.

ABŞ-da keçirilən prezident seçkiləri ilə bağlı dərc olunan 55 məqalədə əsas diqqət Donald Trampın homofob ritorikası və siyasətinə yönəlib. Hökumətyönlü media bu mövzuya simpatiya ilə yanaşaraq Trampın mövqeyini Azərbaycanın LGBTİQ+ əleyhinə ritorikasını legitimləşdirmək üçün istifadə edib.

Azərbaycanlı kuirlərin problemlərinin işıqlandırılması olduqca məhdud olub. 2024-cü il ərzində LGBTİQ+ların problemlərinə həsr olunan cəmi beş yazıya rast gəlinib:

- Virtual tanışlıq LGBTİQ+lar üçün nə qədər təhlükəsizdir? (Mikroskop Media)
- Azərbaycan LGBTQİ+ icmasına 125 min avro ödəyəcək. Niyə? 5 suala cavabda (BBC Azərbaycan)
- Azərbaycanda transların iş və mənzil problemi (Meydan TV tərəfindən “OC Media”nın məqaləsinin tərcüməsi)
- “Problem ondan başlayır ki, dövlət özü hüquqları tanımır” (Amerikanın səsi)
- İstintaq təcridxanasında bir trans qadının başına gələnlər barədə videoreportaj: "Rəis sözünü keçirə bilmədiyi məhbusların üstünə transgenderləri soyundurub göndərirdi" (Meydan TV, “Youtube” kanalı)

Hətta partnyorunu bıçaqlamaqda təqsirli bilinən kuir vətəndaşın məhkəmə prosesi mediada demək olar ki, işıqlandırılmayıb. Bu hadisəni işıqlandıran iki hökumətyönlü media orqanında isə şəxsin gender kimliyi sensasiya yaratmaq və nifrət nitqini yaymaq üçün istifadə olunub. LGBTİQ+ məsələlərinə dair xəbərlərin əsasən xarici siyasət kontekstində və düşmənçilik tonu ilə təqdim olunması bu mövzuda ciddi balanssızlıq olduğunu göstərir. Hazırlanan materiallar sosial ədaləti təşviq etməkdən çox Azərbaycan mediasında kuir mövzusunun siyasi gündəmə xidmət edən strateji alətə çevrilməsini göstərir.

## Yerli və beynəlxalq xəbərlər*




*21 mətbuat orqanı - 691 məqalə

***Şəkil 2: Yerli və beynəlxalq xəbərlər.*** *"QueeRadar" tərəfindən Azərbaycanın 21 mətbuat orqanında LGBTİQ+ mövzusuna aid 691 məqalə qeydə alınıb. Bunlardan yalnız 106-sı (15%) yerli məsələləri, 585-i (85%) isə xaricdəki hadisələri işıqlandırıb. Bu balansın kəskin şəkildə pozulması yuxarıda qeyd olunan tendensiyanı bir daha vurğulayır: Azərbaycan mediası, xüsusən də hökumətyönlü media bu mövzuda olan beynəlxalq xəbərlərə həddindən artıq yer ayırmaqla çox vaxt siyasi narrativlər və ya "əxlaqi" gündəm formalaşdırmağa, bununla da ölkədəki LGBTİQ+ problemlərini işıqlandırmadan yayınmağa və ya bu icmanı marginallaşdırmağa cəhd edir.*

**Gürcüstan**

**Tipik məzmun**

Ənənəvi dəyərlər Qərb təzyiqinə qarşı

**Tipik başlıq üslubu**

"Gürcüstanda gey təbliğatına qadağa qoyulub"

**Fransa**

**Tipik məzmun**

Diplomatik fikir ayrılığı fonunda Fransa rəhbərliyinin gözdən salınması

**Tipik başlıq üslubu**

"Makronun gey nazirləri ailə dəyərlərini sarsıdır"

**ABŞ**

**Tipik məzmun**

Trampın anti-LGBTİQ+ mövqeyinin təqdir edilməsi

**Tipik başlıq üslubu**

"Tramp real ailələri LGBT gündəminə qarşı müdafiə edir"




Beynəlxalq xəbərlər arasında Gürcüstan ən çox işıqlandırılan ölkə olub. 2024-cü ildə qəbul edilən və LGBTİQ+ hüquqlarını məhdudlaşdıran qanunvericiliklə bağlı 158 xəbər dərc olunub. Həm müstəqil, həm də hökumətyönlü media bu qanun layihəsini birinci oxunuşdan son qəbul mərhələsinə qədər izləyib. Lakin məzmun baxımından ciddi fərqlər müşahidə olunub:

- Müstəqil media qanunvericilik prosesini sadə xəbər formatında təqdim edib.

- Hökumətyönlü media isə qanunu “ənənəvi dəyərlərin” qələbəsi kimi təqdim edərək kuir hüquqlarını xarici təsir və mənəvi tənəzzüllə əlaqələndirən müsahibələr yayımlayıb.

Gürcüstanla bağlı Haqqin.az və Report.az saytlarında çıxan bəzi qeyri-adekvat, alçaldıcı nümunələrə nəzər salaq:



**Şalva Tetruaşvili: LGBT-ni dəstəkləmək ailə institutunu məhv etməyə hesablanıb**

REGİON — 16 oktyabr 2024 · 06:38



Şalva Tetruaşvili

Bizim üçün ailə dəyərləri, milli dəyərlər çox önəmlidir. Ona görə də hesab edirəm ki, Gürcüstanda LGBT təbliğatına qarşı çıxanlar və bununla bağlı qadağanedici qanunu imzalayanlar haqlıdırlar.



**Официально: в Грузии запретили гей-пропаганду и смену пола**

27 июня 2024, 14:13 · 2013

**Парламент Грузии поддержал в первом чтении пакет законодательных изменений о запрете пропаганды ЛГБТ.** *Заседание в прямом эфире транслировалось на сайте законодательного органа, пишут грузинские СМИ.*

## Fransa və Amerika Birləşmiş Ştatları

Bu mövzu ilə bağlı ən çox işıqlandırılan növbəti ölkələr Fransa və ABŞ olub.

- **Fransa (111 xəbər):** İkitərəfli diplomatik gərginliklər fonunda Azərbaycan mətbuatı Parisdən gələn tənqidlərə cavab olaraq təhqir və böhtana üz tutub, Fransız rəsmilərin cinsi oriyentasiyalarını dəfələrlə vurğulayıb. Cinsi oriyentasiya birbaşa etibarsızlaşdırıcı vasitə kimi təqdim olunub.
- **ABŞ (55 xəbər):** 2024-cü il ABŞ seçkilərinin işıqlandırılmasında əsas diqqət Donald Trampın LGBTİQ+ əleyhinə fikirlərinə yönəlib və onun bu mövqeyi Azərbaycan dəyərləri ilə uyğun görülərək alqışlanıb.

Xaricdə baş verən hadisələrə ayrılan bu diqqət Azərbaycan mediasına imkan verib ki, LGBTİQ+ müzakirələr yerli kontekstdən yayındırılsın, oxucuların diqqəti daxili problemlərdən uzaqlaşdırılsın, eləcə də dövlətin milli və mədəni “saflıq” ilə bağlı narrativini gücləndirilsin. LGBTİQ+ hüquqları ilə bağlı yerli materialların çox az olması ölkədə kuir reallıqlarının işıqlandırılmasının ciddi senzura altında olduğunu göstərir.

# Xəbərlərin tonu




***Şəkil 3: Xəbərlərin tonu.*** *2024-cü ildə Azərbaycan mətbuatında LGBTİQ+ mövzuları yenidən qərəzli və problematik şəkildə işıqlandırılıb. Ümumilikdə 691 məqalə təhlil edilib. 470 xəbərdə (təxminən 68%) LGBTİQ+ şəxslərə və onların hüquqlarına qarşı qərəzli və ya problematik məzmun yer alıb. 212 xəbər (təxminən 31%) neytral kimi təsnif edilib. Bu o deməkdir ki, həmin məqalələrdə açıq şəkildə diskriminativ dil və ya çərçivə istifadə olunmasa da, dəstəkləyici və ya kontekstual məlumat da təqdim olunmayıb. Yalnız 7 xəbər (1%-dən bir qədər çox) insan hüquqları və inklüzivliyi vurğulayan və ya LGBTİQ+ hüquqlarını müdafiə edən rakursdan yazılıb. Bu cür kəskin fərq bir daha ondan xəbər verir ki, Azərbaycanda LGBTİQ+ məsələləri ilə bağlı qərəzli media mühiti mövcuddur.*

| İstifadə olunan söz və ifadələr | Söz sayı |
|---|---|
| LGBT | 337 |
| Trans, transgender, transsexual | 140 |
| Eyni cins | 93 |
| Gey | 84 |
| Homoseksual | 61 |
| Cinsi azlıq | 56 |
| LGBTİQ+, LGBTİ | 42 |
| Mavi, üzdəniraq, petux | 24 |
| "Qeyri-ənənəvi oriyentasiya", "qeyri-ənənəvi cinsi əlaqə", "qeyri-standart cinsi oriyentasiya" | 18 |
| Lezbiyan | 14 |
| Biseksual | 14 |
| Üçüncü cins | 7 |
| İnterseks | 4 |

***Şəkil 4. LGBTİQ+ ilə bağlı mediada istifadə olunan ifadələrin siyahısı və işlənmə tezliyi.*** *Göründüyü kimi, 2024-cü ildə də mənzərə problemli olaraq qalır. Ən çox istifadə edilən abbreviatura yenə də "LGBT" olub və bu, 337 dəfə işlədilib. Lakin daha inklüziv formalar – "LGBTİQ+", "LGBTİ", "LGBTQ+" cəmi 42 dəfə qeyd olunub. Diskriminativ və alçaldıcı ifadələrin bu il artması da diqqət çəkir. Məsələn, 2023-cü ildə cəmi 2 dəfə rast gəlinən "mavi", "üzdəniraq" kimi ifadələr 2024-cü ildə 24 dəfə işlədilib. Bundan əlavə, "qeyri-ənənəvi oriyentasiya", "qeyri-standart cinsi əlaqə" kimi stereotipləri gücləndirən ifadələrə 18 dəfə rast gəlinib. Bu göstəricilər mediada LGBTİQ+ mövzularına münasibətin hələ də ayrı-seçkilik doğuran çərçivədə aparıldığını göstərir.*

| Qərəzli materialların təsnifatı | Məqalələrin sayı |
|---|---|
| Qalmaqallı, sensasiyalı məzmun | 183 |
| LGBTİQ+un mənfi imicinin yaradılması (alçaldıcı ton, diskriminativ terminologiya, dil və məzmun, insanları gözdənsalma) | 143 |
| Oriyentasiyanın, gender mənsubiyyətinin yersiz xatırladılması | 88 |
| Yanlış terminologiya (LGBT nümayəndəsi, cinsi azlıq, cins/gender dəyişikliyi və s.) | 85 |
| Cəmiyyətə, dövlətə zərər vurmaq və mənfi təsir göstərməkdə günahlandırma | 57 |
| Açıq-aşkar kuirfob açıqlamaların və mətnlərin sitat olaraq təqdim edilməsi; kuirfob açıqlamaların müəllifi olan şəxslərin mövqeyi ilə redaksiya və ya jurnalistin mövqeyinin eyni olmadığına dair şərhin verilməməsi | 55 |
| Alçaldıcı və ya təhqiramiz kontekstdə qeyd olunma | 35 |
| Mənəvi pozğunluq, əxlaqsızlıqla bağlı ittihamlar | 22 |
| Ermənistanla əlaqəli məzmun (millətçiliklə kuirfobiyanın birgə təzahürü) | 14 |
| LGBTİQ+un xəstəlik kimi qeyd olunması, xəstəliklərlə assosiasiya edilməsi | 7 |
| Zorakılıq və ayrı-seçkiliklə bağlı çağırışlar | 0 |

***Şəkil 5: Kuirfobiyanın təsnifatı.** Cədvəl Azərbaycan mediasında LGBTİQ+ məsələləri ilə bağlı kuirfobiyanın müxtəlif formalarını göstərir. Bu kateqoriyalar jurnalistlərin stereotipləri necə gücləndirdiklərini, neqativ təsəvvürlərin formalaşmasını təşviq etdiklərini və bununla da LGBTİQ+a qarşı diskriminativ münasibətin normallaşdırıldığını vurğulayır.*

**"İYRƏNCLİYİN PİK NÖQTƏSİ – "EUROVISION" AÇIQ ŞƏKİLDƏ LGBT SAMMİTİNƏ DÖNÜB"** Musavat.com

**MÖVZU / HADİSƏ**

Köşə yazarı Xalid Kazımlı 2024-cü il "Avroviziya" musiqi yarışmasını "cinsi azlıqların festivalı" kimi qələmə verib, "iyrənclik" kimi ifadələrdən istifadə edib, kuirlərin ictimaiyyət qarşısına çıxmasını mənəvi tənəzzül kimi təsvir edib.

**"QALMAQALLI OLİMPİYA ÇEMPİONU KİŞİ İMİŞ"** Milli.az

**MÖVZU / HADİSƏ**

Boksçu İman Xəlifinin trans olmamasının təsdiqlənməsinə baxmayaraq, sayt onun genderini yanlış təqdim edib və klik-beyt (clickbait) başlıq qoyub.

**"SEVGİLİSİNİ BIÇAQLAYAN CİNSİ AZLIĞA YÜNGÜL CƏZA VERİLDİ"** Baku.ws

**MÖVZU / HADİSƏ**

Məhkəmə prosesini işıqlandırarkən diqqət cinayətə deyil, şəxsin cinsi orientasiyasına yönəldilib. Bu isə kuir şəxslərin guya hüquqi güzəştlərdən faydalandığı mesajını verib. Halbuki, jurnalist etikası tələb edir ki, cinayət hadisələrini işıqlandırılarkən şəxsi xüsusiyyətlər yalnız ciddi dərəcədə əhəmiyyətli olduqda vurğulansın. Bundan başqa, "cinsi azlıq" kimi ifadələr kuirfobdur və yolverilməzdir.

**"EKRANI MAVİLƏR BÜRÜYÜB"- XALQ ARTİSTİ OD PÜSKÜRDÜ"** Lent.az

**MÖVZU / HADİSƏ**

Aktrisa Naibə Allahverdiyeva verdiyi müsahibədə kuir aparıcıları lağa qoymaq üçün "mavi" sözündən istifadə edib. Mətbuat orqanı bu ifadəni başlığa çıxarıb. Belə bir təhqirin klik-beyt məqsədilə dərc olunması nifrət nitqinin güclənməsinə nümunədir. Redaktorlar alçaldıcı dili süzgəcdən keçirməli, ən azı onu kontekstuallaşdırmalı və tənqidi çərçivəyə salmalıdırlar.

**"QISIR MAKRONUN GEY HÖKUMƏTİ – 2024-DƏ BƏZİ BAŞLAR GEDƏCƏK"** Musavat.com / Milli.az

**TOPIC / EVENT**

Fransa ilə ikitərəfli gərginlik fonunda bu ölkənin liderlərinin seksual oriyentasiyası alçaltma vasitəsinə çevrilib və prezident Makronun kabineti "gey hökuməti" adlandırılıb. Məqalənin başlığı diplomatik gərginliyi izah etmək əvəzinə, kuir şəxslərə qarşı yönəlmiş mənfi və təhqiramiz mövqe sərgiləyir.

***Şəkil 6: Qərəzli sərlövhələr.** Azərbaycan mediasında sərlövhələr əsas stiqma vasitələrdir. Seçdiyimiz bu beş nümunə göstərir ki, kuir kimliklər başlıqlarda mütəmadi olaraq alçaldılırlar. Hökumətyönlü media orqanlarında bu başlıqlar əsasən sensasiyaya hesablanır, həm siyasi rəqibləri gözdən salmaq, həm də kuir şəxsləri lağa qoymaq üçün "klik-beyt" taktikasından istifadə edilir.*

## Nümunələrin təhlili

Bu bölmə 2024-cü ildə Azərbaycan mediasında, xüsusilə də hökumətyönlü mətbuat orqanlarında kuirfob narrativlərin necə təşviq olunduğunu göstərir. Təhlil olunan xarici xəbər materialları sübut edir ki, LGBTİQ+ ilə bağlı beynəlxalq məsələlər ölkə daxilində tez-tez siyasi alətə çevrilir, kuir kimliklər isə istehza və təhqir obyekti edilir. Yerli xəbər nümunələrində isə kuir mövzuların ya tamamilə iqnor edildiyi, ya da sadəcə sensasiya xatirinə təhrif edildiyi müşahidə edilir. Bu cür yanaşma medianın kuirlərə münasibətdə qərəzindən və ictimai fikri yönləndirmək üçün nifrət və qorxu yaratmağa xidmət edən informasiya strategiyalarından xəbər verir.

## Nümunə 1. Olimpiya Oyunlarının işıqlandırılmasında transfobiyanın təzahürü


Ana səhifə / Dünya 10 AVQUST, 2024 / 15:03 2390

Avropa Boks Konfederasiyasının baş katibi transgenderin qələbəsi barədə: "Qadın boksu dəfn edildi"


Transgender boksçu həmin qalmaqaldan danışdı - Video

İdman 05.08.2024 I 23:32 Oxunma sayı: 5452

Paris-2024 Yay Olimpiya Oyunlarında qadınlar arasında keçirilən boks yarışında italiyalı idmançı Anjela Karinin transgender olduğu üçün döyüşməkdən imtina etdiyi əlcəzairli rəqibi İman Xelifi qalmaqallardan sonra mətbuata açıqlama verib.

Fransa ilə bağlı 2024-cü ildə hökumətyönlü media orqanlarında dərc olunan LGBTİQ+ fokuslu 111 xəbərin 17-si sırf əlcəzairli boksçu İman Xəlifi barəsindədir.

“Paris-2024” Yay Olimpiya Oyunlarında İman Xəlifinin rəqibi onunla döyüşməkdən imtina edib və səbəb kimi Xəlifinin trans qadın olması iddiasını göstərib. Bu hadisə Xəlifinin yarışda iştirak hüququ ilə bağlı transfob və yanlış məlumatların sürətlə yayılmasına səbəb olub .

Beynəlxalq media bu xəbəri işıqlandırdıqdan sonra məlum olub ki, İman Xəlifi sisgender (yəni trans olmayan) qadındır və mübahisə əslində onun yüksək testosteron səviyyəsi ilə bağlıdır. Lakin Azərbaycan mediasında, xüsusilə Qafqazinfo.az, Baku.ws, Oxu.az və Milli.az kimi saytlarda bu hadisə 4–18 avqust tarixləri arasında qərəzli və sensasiya dolu başlıqlarla təqdim olunub. “Qafqazinfo”nun dərc etdiyi “Qalmaqallı boksçunun kişi olduğu təsdiqlənibmiş” başlıqlı xəbəri idmançı haqqında məlum olan faktlara tamamilə məhəl qoymamaq göstəricisidir.

Bu cür informasiya kirliliyi dövründə bu hadisənin obyektiv və doğru şəkildə işıqlandırıldığı mənbələri tapmaq çətin ola bilər. Buna görə maraqlanan oxucuların “GLAAD” təşkilatının məsələ ilə bağlı verdiyi rəsmi açıqlama ilə tanış olmalarını tövsiyə edirik.

## Nümunə 2. “Sonuncu şam yeməyi”


Olimpiadanın açılış mərasimini "proqressiv" rejissora həvalə etdilər, ona 1,5 milyard avro verdilər və utanmamağı tapşırdılar. Rejissor bütün "dəyər"ləri bir yerə topladı və onları Sen çayının sahilində dünyaya təqdim etdi. Məşəllə qaçan dəmir maskalı adam, Ludoviklər, başsız Mariya Antuanetta (başını diqqətlə əllərində tuturdu), barrikadalar və "Marselyeza". Sonra "dəyərlər" gəldi.

Tamaşaçılar qarşısında 33 gender, LGBTİQ+ nümayəndələri, rəngli məxluqlar peyda oldu, vəhşət filmlərinin qəhrəmanları bu "dəyərlər"lə müqayisədə onlar demək olar ki, mələklərdir....



"Sonuncu şam yeməyi" əsərinin parodiyası bu "trans-peretrans"larla başa çatdı.

Qəribədir ki, Roma Papası bu barədə heç nə deməyib. Yoxsa ona fərqi yoxdur? Hətta bəzi avroparlamentarilər inananların hisslərini müdafiə etmək üçün açıq şəkildə çıxış edərək, Olimpiadanın açılışının bütün xristianları təhqir etdiyini etiraf etdilər. Amma Papa və onun kardinaları yox...


**Makron İsa Məsihin həvarilərini “gey” çıxartdı, Fransa üzr istədi! - VİDEO**

3546 | 28.07.2024 19:50 | Son xəbər

**Paris Olimpiya Oyunlarının təşkilatçıları açılış mərasimində nümayiş etdirilən Leonardo da Vinçinin “Son şam yeməyi” rəsminin parodiyasına görə üzr istəyiblər.**

**Musavat.com** “The Telegraph”a istinadən xəbər verir ki, İsa Məsihin və onun həvarilərinin görüşünün Bibliya versiyası canlandırılan səhnədə transvestitlər və çılpaq müğənni çıxış edib.

2024-cü ildə ən çox hədəf alınan mövzulardan biri “Paris 2024” Yay Olimpiya Oyunlarının açılış mərasimi, xüsusən də Leonardo da Vinçinin “Sonuncu şam yeməyi” tablosunun kuir aktyorların iştirakı ilə səhnələşdirilməsi olub.

Bu mövzu ilə bağlı dərc olunan 111 xəbərdən 49-u məhz bu tamaşaya fokuslanıb. Hadisə beynəlxalq mediada da geniş işıqlandırılsa da, Azərbaycan mediasında xüsusilə aqressiv, aşağılayıcı və homofob ritorika ilə təqdim olunub. Bəzi xəbər portalları digər ölkə rəsmilərinin bu tamaşa ilə bağlı homofob açıqlamalarını ayrıca tirajlayıblar.

Məsələn, 24 iyul tarixində Milli.az saytının baş redaktoru Elçin Alıoğlu “Əsl Makron şousu: tərbiyəsizlik, qarışıqlıq, acizlik” başlıqlı köşəsində Fransa prezidentini bu açılışa görə ittiham edib:

> “Tərsinə qaldırılan Olimpiya bayrağı bəlkə də səhv deyildi, bəlkə də Olimpiya hərəkatinin “yaradıcı şəkildə yenidən düşünülməsi” idi. Trans-bayraq, belə deyək. Onların orada hər şeyi “trans”dır, hər şeyi tərs edir, hər şeyi baş-ayaq edirlər. Hər şeyi tərsinə edirlər, insanlar kimi deyil. Yeni normallıq… Beləliklə, dünya çoxluğu üçün müəyyən olmaq vaxtı gəldi, idman və trans-olimpiya şouları arasında seçim etmək vaxtı gəldi. Mədəniyyət və trans-mədəniyyət arasında. Dəyərlər və trans-dəyərlər arasında. Həyat və trans-həyat arasında”.

Müəllif burada siyasi gərginliklə transfobiyanı birləşdirərək transları mənəvi tənəzzülün simvolu kimi təqdim edir. Onun dili həm diskriminativdir, həm də “normallıq” anlayışını yalnız öz təsvir etdiyi ənənəvi və heteronormativ dəyərlərlə əlaqələndirir.

“Yeni Müsavat” qəzeti bu mövzunun təqdimatında daha irəli gedərək, “Makron İsa Məsihin həvarilərini “gey” çıxartdı, Fransa üzr istədi!” başlıqlı xəbər dərc edib. Bu cür sensasiya xarakterli başlıq klikbeyt taktikasının klassik nümunəsidir.

Xəbərdə “transvestit”, “mavi rəngə boyanmış kişi” kimi ifadələr təhqiramiz kontekstdə işlədilərək, kuirlərə qarşı formalaşmış stereotipləri möhkəmləndirir. Bu dil cəmiyyətin müəyyən qruplarına qarşı nifrət, istehza və qorxu hissi oyatmağa xidmət edir. Peşəkar jurnalistika inklüziv dildən istifadə etməli, ayrı-seçkilik və damğalanmanı gücləndirən ifadələrdən kənar qalmalıdırlar.

## Nümunə 3: Avropa İttifaqının qətnaməsi haqqında dezinformasiya

“Yeni Müsavat” qəzetində dərc olunan və Avropa Parlamentinin qətnaməsinə dair material növbə-

ti narahatedici nümunədir. Qətnamə Azərbaycanda vətəndaş cəmiyyətinə, mediaya və LGBTİQ+ vətəndaşlara qarşı təzyiqləri pisləyir. Lakin qəzet bu sənədi "Avropanın Azərbaycanda LGBT dərdi" sərlövhəsi ilə təqdim edir. Bu isə həm mövzunun mahiyyətini təhrif edir, həm də nifrət ritorikasını gücləndirir.

Jurnalist Cavanşir Abbaslı tərəfindən qələmə alınan məqalədə nə obyektivlik, nə qərəzsizlik, nə də insan ləyaqətinə hörmət prinsiplərinə əməl olunur. Məqalədə müəllifin və redaksiyanın ideoloji mövqeyi oxucuya fakt və şərh arasındakı sərhədləri pozaraq təqdim edilir.

Məqalədə yalnız LGBTİQ+ əleyhinə olan siyasi fiqurların fikirlərinə yer verilir, kuir vətəndaşlar isə "bəla", "təhlükə", "xəstəlik" kimi ifadələrlə patolojiləşdirilir. Məsələn, Ağ Partiyanın sədr müavini Əhəd Məmmədli bildirir: "LGBT bütün cəmiyyətlərə, insanlığa, ölkələrə və xalqlara təhlükə yaradan bir bəladır." Belə ritorika birbaşa nifrət nitqidir – insanları cinsi oriyentasiyalarına və gender kimliklərinə görə hədəfə alır, onların cəmiyyətdə təhlükəli obrazda təqdim olunmasına yol açır.

Daha narahatedici fikir isə politoloq Əli Orucova məxsusdur. O, LGBTİQ+ların məcburi "reabilitasiya"dan keçməsini təklif edir: "Azərbaycan bu xəstəliyin müalicəsi üçün məcburi reabilitasiya mərkəzləri yaratmalıdır." Bu yanaşma nə tibbi, nə hüquqi baxımdan qəbulolunandır. Çünki cinsi oriyentasiya və gender kimliyi xəstəlik deyil və bu tip "müalicəvi" üsullar beynəlxalq insan hüquqları qurumları tərəfindən zorakılıq və işgəncə kimi tanınır.

Məqalə bütövlükdə konspiroloji düşüncə tərzinə əsaslanır və ictimaiyyətdə qorxu və dözümsüzlük yaratmaq məqsədi güdür. Media cəmiyyətə nifrət toxumu səpmək əvəzinə, faktlara əsaslanan, insan hüquqlarını qoruyan və məsuliyyətli yanaşma nümayiş etdirməlidir.

## Nəticə

2024-cü ildə regionda avtoritar meyil və informasiya məkanına nəzarətin güclənməsi Azərbaycan mediasında LGBTİQ+ məsələlərinin təqdim olunmasına da təsir göstərib. Builki monitorinq nəticələri göstərir ki, LGBTİQ+ məsələləri əvvəlki illərlə müqayisədə daha çox beynəlxalq diskursda siyasi alətə çevrilib. Əvvəllər kuir kimliklər əsasən daxili siyasətdə manipulyasiya vasitəsi kimi təqdim olunurdusa, 2024-cü ildə bu tendensiya beynəlxalq hadisələrin şərhinə də sirayət edib.

İl ərzində toplanmış 691 media materialından 585-i ölkədən xaricdəki hadisələrlə əlaqədar olub. Bu xəbərlərin əksəriyyətində düşmənçilik tonu, sensasiyaçılıq və ya istehzalı nitq ön planda olub. Xüsusilə Gürcüstanda "ailə dəyərləri" ilə bağlı qanunvericilik təşəbbüsü, Fransadakı siyasi təyinatlar və ABŞ-da keçirilən prezident seçkiləri ilə bağlı xəbərlər bu cür tonla təqdim olunub.

Təhlil olunan materiallardan yalnız 209-da neytral, yəni qərəzdən və sensasiyadan uzaq ton müşahidə olunub. Diqqətçəkən digər məqam isə ölkə daxilində kuirlərin vəziyyətinə dair xəbərlərin yox dərəcəsində olmasıdır: cəmi beş materialda (hamısı müstəqil mətbuatın payına düşür) birbaşa olaraq Azərbaycanda LGBTİQ+ların vəziyyəti və ya hüquqları mövzusuna toxunulur.

Əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də hökumətyönlü media kuirlərə qarşı nifrət və ya ayrı-seçkilik xarakterli fikirlər səsləndirən ictimai və siyasi fiqurlara geniş yer ayırıb. Bu çıxışların əksəriyyəti kontekstə uyğun gəlməyən, lakin planlı şəkildə yerləşdirilən açıqlamalardan ibarət olub.

Nəticə: 2024-cü ildə Azərbaycan mediasında kuir kimliklərin alət kimi istifadəsi güclənib və bu yanaşma beynəlxalq narrativlərə də ciddi şəkildə inteqrasiya olunub.

# ERMƏNİSTAN

Ermənistanda LGBTİQ+ vətəndaşlar üçün bərabərlik və ayrı-seçkilikdən müdafiə sahəsində ciddi maneələr qalmağa davam edir. Ölkə "ILGA-Avropa"nın "Göy qurşağı xəritəsi"ndə əvvəlki illə müqayisədə bir qədər irəliləsə də, gender əsaslı diskriminasiyaya qarşı qanunvericiliyin olmaması onu hələ də Avropa ölkələri sırasında geridə saxlayır.

Aparılmış monitorinq göstərir ki, Ermənistan mediasında LGBTİQ+ mövzuları vaxtaşırı işıqlandırılsa da, bu məsələlər adətən insan hüquqları müstəvisində deyil, siyasi çəkişmələrin tərkib hissəsi kimi təqdim olunur. Ermənidilli media bu mövzuda daha çox sensasiya xarakterli hadisələrə diqqət yetirir və yerli məsələlərə az yer ayırır. Media qurumları adətən zorakılıq hallarına diqqət ayırsa da, bu hadisələrin səbəbləri dərindən təhlil olunmur.

Əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də LGBTİQ+ mövzularının mediada işıqlandırılmasında xarici xəbərlər üstünlük təşkil edib. Xüsusilə qonşu Gürcüstanda LGBTİQ+ hüquqları ilə bağlı baş verən siyasi müzakirələr erməni mediasının diqqət mərkəzində olub.

Monitorinq dövründə çıxan materialların çoxu qeyri-mütənasib şəkildə translara yönəlib və trans kimliklər siyasi mübahisələrdə alət kimi istifadə olunub. Trans subyektlər əsasən siyasi və ya maqazin xarakterli, eləcə də məşhur şəxslərlə bağlı olaraq medianın diqqətini cəlb ediblər. Lakin bu materiallara nadir hallarda inklüzivlik və insan hüquqları prizmasından yanaşılır, əksər hallarda kontekst və həssaslıq çatışmır. Nümunə olaraq erməni trans qadının beynəlxalq gözəllik müsabiqəsində iştirakı haqqında xəbərlər göstərilə bilər. Bu hadisə sosial şəbəkələrdə kəskin mənfi reaksiya doğurub, siyasi şərhlər və konspirasiya nəzəriyyələri ilə müşayiət olunub və nəticədə geniş ictimai rezonans doğuraraq ölkə səviyyəsində müzakirə mövzusuna çevrilib.

LGBTİQ+ vətəndaşlara qarşı real zorakılıq halları mediada demək olar əksini tapmayıb. Yerli LGBTİQ+ hüquqlarını müdafiə edən "Pink Armenia" təşkilatının məlumatına əsasən, 2024-cü ilin ilk altı ayı ərzində ayrı-seçkilik zəminində 42 hüquq pozuntusu qeydə alınıb, bunlardan 29-u məişət zorakılığı ilə bağlı olub. Bunlardan heç biri monitorinqə daxil edilmiş media orqanlarında işıqlandırılmayıb.

## Monitorinq nəticələrinin xülasəsi

Ermənistanda LGBTİQ+ hüquqları ilə bağlı problemlər hələ də aktuallığını qorusa da, yerli media kuir mövzularda diqqətini əsasən xarici ölkələrdəki hadisələrə yönəldib. Xüsusilə Gürcüstanda və bir qədər Rusiyada baş verənlər mətbuatın gündəmini təşkil edib. Məsələn, Gürcüstanda anti-LGBTİQ+ qanunvericiliyinin qəbulu mühafizəkar mövqeyə malik media orqanlarında geniş şəkildə işıqlandırılıb. Son bir il ərzində ermənidilli mediada LGBTİQ+ ilə bağlı materialların təxminən üçdə biri ya birbaşa Gürcüstanda baş verən hadisələrə həsr olunub, ya da onların təsiri ilə formalaşıb. Belə ki, media seksuallıq və LGBTİQ+ hüquqları ilə bağlı tez-tez Gürcüstanın hakim "Gürcü arzusu" partiyasının ritorikasını təkrarlayıb. Yerli media nə müstəqil təşəbbüs göstərib, nə də dərin təhlilə yönəlib. Orijinal araşdırmalar əvəzinə, tez-tez xarici mənbələrə istinad edərək hazır narrativlərin köçürülməsi müşahidə olunur. Yayımlanan materialların əksəriyyəti bir-birinə bənzəyir; bəzi hallarda isə media orqanları xəbərləri demək olar ki, "kopyala-yapışdır" üsulu ilə tirajlayıblar. Bunu xüsusilə Gürcüstanda səs-küyə səbəb olmuş bir hadisənin - trans qadın Kesariya Abramidzenin öz evində qətlə yetirilməsinin işıqlandırılmasında aydın şəkildə görmək olur. Hadisə bir çox erməni mediasında yer alsa da, yazıların çoxu təkrarlayıcı xarakter daşıyıb, analitik yanaşmaya nadir hallarda rast gəlinib. Zorakılıq hadisəsi neytral tonda təqdim olunsa da, sosial-siyasi şərait, o cümlədən transfob mühitin analizi, ümumiyyətlə diqqətdən kənarda qalıb.

Monitorinq göstərir ki, media qurumlarının LGBTİQ+ məsələlərinə yanaşması əsasən istinad etdikləri mənbələrə uyğun şəkildə dəyişir. Bu isə medianın bu sahədə vahid redaksiyadaxili standartlara və etik çərçivəyə malik olmadığını ortaya qoyur.

Eyni zamanda, media qurumlarının mövqeyində siyasi qütbləşmə də aydın görünür. Hökuməti tənqid edən media qurumları LGBTİQ+ məsələlərini daha çox gündəmə gətirir, əksər hallarda bunu dövlət siyasətini tənqid etmək və ya hakimiyyətin legitimliyini sual altına almaq məqsədilə edirlər. Əvəzində, hökumətyönlü və ya ona yaxın media orqanları bu mövzuya yalnız dolayı yolla, müdafiə xarakterli şərhlərdə toxunur, dövlətin bu məsələlərlə hər hansı şəkildə əlaqələndirilməsinin qarşısını almağa çalışırlar.

Ölkədə balanslı və analitik yerli xəbərlərin azlığı səbəbindən oxucu LGBTİQ+ vətəndaşları mənfi tərəfdən təqdim edən ritorikaya məruz qalır. Bu həm yanlış ifadələrin istifadəsində, həm də LGBTİQ+ların cəmiyyət üçün "təhlükə" kimi təqdim olunmasında özünü göstərir. Bununla belə, bu alçaldıcı leksikon və təhqiramiz ifadələrdən istifadə əvvəlki illə müqayisədə azalıb, bu da cüzi dəyişikliyin baş verdiyini göstərir.

## Yerli və beynəlxalq xəbərlər*




*10 media orqanı - 213 məqalə

*__Şəkil 7.__ 2024-cü ilin yanvar-dekabr ayları ərzində Ermənistanın 10 media orqanında aparılan monitorinq nəticəsində LGBTİQ+ mövzusuna dair 213 material toplanıb. Bu materialların 60 faizindən çoxu xarici ölkələrdə baş verən hadisələrə həsr olunub, onların da əhəmiyyətli hissəsi Gürcüstandakı situasiyanı əhatə edir.*

*ABŞ-da Donald Trampın prezident seçilməsindən sonra onun administrasiyasının trans şəxsləri hədəf alan və gender kimliyinə dair qəbul etdiyi siyasi qərarlar da Ermənistan mediasında bu mövzunun gündəmə gəlməsinə təsir edib.*

*Bunlarla müqayisədə yerli kontekstdə orijinal materiallara demək olar ki, rast gəlinmir. Həm mövzu seçimi, həm də təqdimat əsasən xarici mənbələrin, xüsusilə də rusdilli medianın təsiri altında formalaşıb.*

# Xəbərlərin tonu




***Şəkil 8. Xəbərlərin tonu.*** *Ermənistan mediasında xəbərlərin təqdimatı əsasən onların istinad etdiyi orijinal mənbələrdən asılı olub. Məsələn, eyni platformada həm kuir-inklüziv materialların, həm də konspiroloji nəzəriyyələri təşviq edən və ya alçaldıcı dilə yer verən məqalələrin dərc olunmasına rast gəlmək mümkündür. Bu isə onu deməyə əsas verir ki, əksər media qurumlarının LGBTİQ+ məsələlərinin işıqlandırılmasında vahid redaksiya standartları və ardıcıl yanaşmaları yoxdur. İnklüziv və neytral xəbərlərin əksəriyyəti daha çox siyasi və ya institusional qurumların mövqelərini əks etdirən rəsmi açıqlamalara əsaslanır. Məsələn, Ermənistanın Ombudsmanı tərəfindən 21 iyun 2024-cü ildə yayımlanmış bəyanatı (insan hüquqları sahəsindəki narahatlıqlardan bəhs edən və LGBTİQ+ hüquqlarının müdafiəsi ilə bağlı ofisə edilən hücumları pisləyən açıqlama) əlavə şərh verilmədən olduğu kimi dərc olunub.*




***Şəkil 9. LGBTİQ+ ilə bağlı mediada istifadə olunan ifadələrin siyahısı və işlənmə tezliyi.***

| Ermənistan mediasında qərəzli materialların təsnifatı | Məqalələrin sayı |
|---|---|
| Yanlış terminologiya (LGBT nümayəndəsi, cinsi azlıq, cins/gender dəyişikliyi və s.) | 63 |
| Qalmaqallı, sensasiyalı məzmun | 35 |
| Cəmiyyətə, dövlətə zərər vurmaq və mənfi təsir göstərməkdə kuirləri günahlandırma | 31 |
| LGBTİQ+un mənfi imicinin yaradılması (alçaldıcı ton, diskriminativ terminologiya, dil və məzmun, insanları gözdənsalma) | 31 |
| Oriyentasiyanın, gender mənsubiyyətinin yersiz xatırladılması | 15 |
| Mənəvi pozğunluq, əxlaqsızlıqla bağlı ittihamlar | 7 |
| Alçaldıcı və ya təhqiramiz kontekstdə qeydetmə | 7 |
| Açıq-aşkar kuirfob açıqlamaların və mətnlərin sitat olaraq təqdim edilməsi; kuirfob açıqlamaların müəllifi olan şəxslərin mövqeyi ilə redaksiya və ya jurnalistin mövqeyinin eyni olmadığına dair şərhin verilməməsi | 6 |
| LGBTİQ+un xəstəlik kimi qeyd olunması, xəstəliklərlə assosiasiya edilməsi | 4 |
| Azərbaycan ilə əlaqəli kontekst (millətçiliklə kuirfobiyanın birgə təzahürü) | 2 |
| Zorakılıq və ayrı-seçkiliklə bağlı çağırışlar | 0 |

***Şəkil 10: Kuirfobiyanın təsnifatı.** Cədvəl Ermənistan mediasında LGBTİQ+ məsələləri ilə bağlı kuirfobiyanın müxtəlif formalarını göstərir. Bu kateqoriyalar jurnalistlərin stereotipləri necə gücləndirdiyini, neqativ təsəvvürləri təşviq etdiyini və bununla da LGBTİQ+a qarşı diskriminativ münasibəti necə normallaşdırdığını vurğulayır.*

| SƏRLÖVHƏ | SƏRLÖVHƏ | SƏRLÖVHƏ | SƏRLÖVHƏ | SƏRLÖVHƏ |
|---|---|---|---|---|
| “Fransanın gey xarici işlər naziri xəstəliyi haqqında” | “Məşhur Nikol tərəfdarı pozğun, homoseksual, pornoaktyor “Romaşka” onu övladlığa götürmüş Qarik Qaleyan əleyhinə ifadə verib...” | “Transgender Dinul Merucan Qzroyanın - Axuryan polisinin oğludur” | “Lezbiyan seks səhnələri, çarmıxa çəkilmələr və qanlı səhnələri olan qalmaqallı opera tamaşaçıları iyrəndirdi” | “Zarafat: Şəkildəki pozğun hamaseramol Hovik Ağazaryanı ələ salaraq onu arvamol olmaqda ittiham edib...” |
| 21 Yanvar, 2024<br>Hraparak | 15 İyul, 2024<br>Hayeli.am | 16 Sentyabr, 2024<br>Lurer.com | 12 Oktyabr, 2024<br>Lurer.com | 7 Dekabr, 2024<br>Hayeli.am |
| **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** |
| Məqaləni oxuduqda aydın olur ki, Fransa xarici işlər naziri disleksiya barədə danışır, yeni neyroinkişafla bağlı olan və cinsi oriyentasiya ilə heç bir əlaqəsi olmayan bir haldan. Lakin başlıq oxucunu manipulyasiya edir: “gey” və “xəstəlik” sözlərini yanaşı vurğulayaraq onların arasında semantik bağ yaradır. Bu isə oxucuda kuirliyi xəstəliklə eyniləşdirən təhlükəli stereotipləri gücləndirir | Başlıq kuirfob təbliğatın bir hissəsidir: homoseksuallıq əxlaqsızlıq kimi təqdim olunur, oxucuda mənfi emosiyalar, şok və qınaq yaratmaq məqsədi daşıyır. | Bu başlıq sensasiyaya və ictimai qınağa hesablanmış hücumdur. Oxuculara ötürülən mesaj budur ki, trans olmaq özü-özlüyündə biabırçılıqdır və ailə üçün utanc mənbəyi sayılmalıdır. Bu, jurnalistika deyil. Bu, xəbər adı altında təqdim olunan transfob qeybət və qərəzdir. | Sensasiya xarakterli bu başlıq kuir intimliyi zoraki təsvirlərlə bir qruplaşdırır, hamısının eyni dərəcədə qəbuledilməz və əxlaqsız olduğunu iddia edir. | Başlıq “hamaseramol” və “arvamol” kimi bir neçə təhqiredici ifadədən istifadə etməklə kuir kimliyi alçaldır, ictimai nifrəti körükləyir. |
| Hraparak | Hayeli.am | Lurer.com | Lurer.com | Hayeli.am |

***Şəkil 11. Qərəzli sərlövhələr.*** *Monitorinqini apardığımız KİV-lərdə sərlövhələr xəbərin xülasəsi funksiyasını daşımır, əksinə, mühakimə və qərəzin ifadəsinə çevrilir. Aşağıda təqdim etdiyimiz 5 ən problemli başlıq Ermənistan mətbuatının, xüsusilə də mühafizəkar media qurumlarının manipulyasiya və damğalama praktikasının göstəricisidir. Belə başlıqların məqsədi oxucuda hələ xəbəri oxumazdan əvvəl qərəzli yanaşma formalaşdırmaq və neqativ assosiasiyalar yaratmaqdır.*

## Nümunələrin təhlili

### Nümunə 1: Ermənistan mediasında trans kimliklərin alət kimi istifadə olunması

Böyük bir qəzet hesab olunan “Hraparak” 2024-cü ilin sentyabrında “Erməni transseksuallar niyə Türkiyəyə gedir?” başlıqlı məqalə yayımlayıb. Məqalədə trans qadınların səfərləri şübhəli göstərilib və bu, mediada trans mövzusuna yenidən diqqət çəkib. Materialın yazılmasına səbəb Diana Qazaryan adlı trans qadının “Miss Star International” gözəllik müsabiqəsində iştirakını sosial mediada elan etməsi olub. Onun müsabiqədə ilk erməni kimi çıxışı mediada çox işıqlandırılıb və ictimaiyyətdə müxtəlif fərziyyələrə yol açıb.

“Hraparak” qəzeti qızışdırıcı ritorikadan istifadə edərək yazıb ki, erməni trans qadınlar Türkiyəyə - Ermənistanda düşmən ölkə kimi baxılan ölkəyə - “tez-tez gedirlər”. Diana və dostlarının Türkiyədə çəkilmiş və ictimaiyyətə açıq olan fotolarına, o cümlədən ad günü şəkillərinə istinad ediblər. Amma heç bir sübut olmadan yazıblar ki, “bu faktlar əsasında Ermənistandakı trans qadınların Türkiyə hökuməti tərəfindən maliyyələşdirildiyini istisna etmək olmaz”. Bu əsassız fərziyyə dərin kök salmış millətçilik narahatlığını qabardır və erməni cəmiyyətində zərərli stereotipləri gücləndirir.

Trans qadınların siyasi agentlər və ya təhlükə kimi göstərilməsi yeni hal deyil. Məsələn, may ayında Rusiya tənqidçisi olan yerli QHT nümayəndəsi sosial mediada yazmışdı ki, Moskvada yaşayan zəngin bir erməni rus trans qadınlardan ibarət bir qrupun Yerevana səfərini maliyyələşdirib. Onun sözlərinə görə, bu səfər erməni cəmiyyətində homofobiyanı artırmaq və anti-Avropa fikirlərini yaymaq üçün təşkil olunub. Bu iddia tam əsassız olsa da, müxtəlif saytlar, o cümlədən hökumətə yaxın Civic.am, bu xəbəri daha da şişirdib və məsələyə lazımsız diqqətin yönəlməsinə səbəb olub. Hətta hakim partiyanın keçmiş üzvlərindən biri baş naziri ittiham edərək bildirib ki, Ermənistanın

“vilayətləşdirilməsi” (bu ifadə Türkiyəyə tabe olmaq mənasında istifadə olunur) siyasətində trans qadınlardan da alət kimi istifadə olunur.

Bu cür yanaşma trans kimliklərin xüsusilə təhlükə kimi göstərilib siyasi alət kimi istifadə edilməsinə nümunədir. Kuir və translar fərd kimi qəbul edilmək əvəzinə, davamlı olaraq xarici agentlər, yaxud milli kimlik və təhlükəsizliyə təhdid kimi kimi təsvir olunurlar.

## Nümunə 2: Göy qurşağı “təhlükəsi”

Erməni mediasında LGBTİQ+ tez-tez siyasi məqsəd daşıyan qruplar kimi təqdim olunur. Kuirlərin ictimai həyatda görünməsi çox vaxt şübhəli və məqsədli bir planın tərkib hissəsi kimi göstərilir. Hətta ən sadə simvollar, məsələn, göy qurşağı rəngləri bəzi media qurumları tərəfindən cəmiyyətə zorla qəbul etdirilən “xarici gündəm”in sübutu kimi təqdim edilir.



Məsələn, Oragir.am saytı yanlış olaraq iddia edib ki, dördüncü siniflər üçün Rəsm dərsliyində “LGBT rəngli alma” şəkli var. Bu iddia bir valideynin şikayətinə əsaslanıb. Valideyn həmin dərslikdəki göy qurşağı rənglərində çəkilmiş alma rəsmini LGBTİQ+ mövzularının uşaqlara təbliği kimi qiymətləndirib. Məqalədə paylaşılan şəkil də bu valideynin çəkdiyi fotodur.

Əslində isə bu şəkil LGBTİQ+ ilə bağlı deyil. O, Amerika texnologiya şirkəti “Apple”ın 1977-ci ildən bəri tanınan göy qurşağı loqosudur və dizayn dərslərində tez-tez istifadə olunur. Buna baxmayaraq, Oragir.am faktları yoxlamadan bu xəbəri yayıb və heç bir izahat verməyib. Elə həmin gün Hayeli.am saytı da bu məlumatı eyni şəkildə, sözbəsöz, təkrar yayıb. Hər iki sayt yalnız bir valideynin fikrinə əsaslanıb, heç bir başqa mənbə, məsələn, dərslik nəşriyyatından əlavə açıqlama təqdim olunmayıb.

Kuirlərə qarşı yaradılan bu cür süni və hay-küylü xəbərlər Ermənistan media məkanı üçün qeyri-adi deyil. Belə məlumatlar bəzən hökuməti tənqid etmək və ya hakim partiyanı hədəfə almaq üçün vasitə kimi istifadə olunur. Eyni zamanda, LGBTİQ+ vətəndaşların cəmiyyətdə özlərini ifadə etməsi “ənənəvi dəyərlər”ə qarşı bir təhlükə kimi göstərilir və bu da oxucuların qorxu və narahatlıq hisslərini artırmaq məqsədi daşıyır.

## Nümunə 3: Rusiya mediasının təsiri

Monitorinq apardığımız KİV-lər Gürcüstanda trans qadının qətlini demək olar ki, eyni şəkildə işıqlandırıb. Bu isə göstərir ki, bu cür mövzuların təqdimatı çox vaxt ilkin mənbələrin təsiri ilə for-

malaşır. Hadisə ilə bağlı səkkiz məqalədən beşində məzmun ya birbaşa "Sputnik Gürcüstan"dan tərcümə olunub, ya da açıq şəkildə ona istinad edilib ki, bu da xaricdə LGBTİQ+ ilə bağlı hadisələrin işıqlandırılmasında rusdilli medianın filtrini göstərir. Xüsusilə 168.am saytının Avropa İttifaqının Gürcüstandakı anti-LGBTİQ+ qanunvericiliyinə reaksiyasını əks etdirən materialı bu mövzuda diqqət çəkir. Xəbərdə əsas diqqət Avropa İttifaqının o dövrdəki xarici siyasət rəhbəri Cozep Borrelin Gürcüstan hökumətinin qanunvericiliyə etdiyi dəyişiklikləri pisləməsinə yönəlib. Lakin maraqlıdır ki, xəbərin Rusiyaya aidiyyəti olmasa da, "LGBT" abbreviaturası istifadə olunanda sayt mötərizədə belə bir izahat əlavə edir: "LGBT ekstremist hərəkat kimi tanınır və Rusiya Federasiyasında qadağan olunub". Bu izahat Rusiyada media üçün tətbiq edilən və LGBTİQ+ məzmununun "ekstremist" kimi etiketlənməsini tələb edən qanunvericiliyi xatırladır. Lakin Ermənistanda belə bir tələb mövcud deyil və əlavə izahat verilməsi o deməkdir ki, erməni oxuculara Rusiya konteksti idxal olunur.

Bu, yerli medianın xəbəri "özününküləşdirmədən", yəni erməni oxucusuna uyğunlaşdırmadan tərcümə etdiyini göstərir və daha geniş yayılmış bir tendensiyanı ortaya qoyur: ermənidilli media beynəlxalq LGBTİQ+ məsələlərinin işıqlandırılmasında çox vaxt rusdilli mənbələrə güvənir. Nəticədə, Rusiya dövlətinə bağlı və ya onun təsiri altındakı mediada istifadə olunan problemli terminologiya və çərçivələr erməni mediasına olduğu kimi ötürülür.

# GÜRCÜSTAN

2024-cü ildə Gürcüstanda LGBTİQ+ vətəndaşların hüquqları həm repressiv qanunvericilik, həm də düşmənçiliklə dolu ictimai diskurs səbəbindən ciddi şəkildə pisləşib. Hakim partiya olan "Gürcü arzusu" anti-LGBTİQ+ ritorikasını seçkiqabağı kampaniyasının əsas dayağına çevirərək dəfələrlə "qadın qadındır, kişi kişidir" kimi şüarlardan istifadə edib və kuirləri ənənəvi gürcü dəyərlərinə təhdid kimi təqdim edib. Partiya liderləri "ailə saflığını" qorumağa və "gender təbliğatı" dedikləri məfhumu aradan qaldırmağa söz veriblər. Sentyabrın 17-də parlamentdə regionun ən məhdudlaşdırıcı qanun layihələrindən birini qəbul etməklə bu siyasi kampaniyanın kulminasiya nöqtəsinə çatıb.

"Ailə dəyərləri" haqqında qanun eynicinslilərin nikahını, eynicinslilərin övladlığa uşaq götürməsini, gender adaptasiyasına dair səhiyyə xidmətlərini (hormon terapiyası, əməliyyatlar və psixoloji məsləhət daxil olmaqla) qadağan edir. Qanun həmçinin LGBTİQ+ kimliyinin ictimai ifadəsinə senzura tətbiq edir, Qürur ayı tədbirlərini, göy qurşağı bayraqlarını və LGBTİQ+ mövzulu kitab və filmləri qadağan edir. Prezident Salome Zurabişvili qanun layihəsini imzalamaqdan imtina etsə də, onun qüvvəyə minməsi parlament sədri Şalva Papuaşvili tərəfindən təmin edilib.

Qanunun qəbulundan bir gün sonra tanınmış trans model və teleaparıcı Kesaria Abramidze Tbilisidəki evində qətlə yetirilib. Qatil ömürlük həbs cəzasına məhkum edilsə də, qətl hadisəsi LGBTİQ+ əleyhinə nifrətin ölümcül nəticələrini ortaya qoyub. "ILGA-Avropa" və UNAIDS də daxil olmaqla beynəlxalq təşkilatlar yeni qanunu qınayaraq, bunun zorakılıq, ayrı-seçkilik və sosial təcridə səbəb olacağı barədə xəbərdarlıq ediblər. "ILGA-Avropa"nın sonuncu illik hesabatında Gürcüstandan LGBTİQ+ vətəndaşların xaricə köçündə artım və cəmiyyətin ümumi təhlükəsizliyində kəskin azalma olması vurğulanıb.

"ILGA-Avropa"nın Göy qurşağı xəritəsində 49 Avropa ölkəsi arasında 2022-ci ildə Gürcüstan 25-ci yerdə idi, lakin 2024 və 2025-ci illərdə 36-cı yerə doğru geriləyib. Bu kəskin geriləmə ölkədə LGBTİQ+ şəxslər üçün mühitin sürətlə pisləşməsini göstərir və hakim partiyanın bir sıra qanunvericilik dəyişiklikləri və simvolik addımları ilə üst-üstə düşür. Məsələn, may ayında hökumət rəsmi olaraq 17 may – Beynəlxalq Homofobiya, Bifobiya və Transfobiyaya Qarşı Mübarizə Günü (IDAHOBIT) tarixini "Ailə saflığı və valideynlərə hörmət günü" elan edib. Bu iki tarixin üst-üstə düşməsi LGBTİQ+ kimliklərinə qarşı çıxmaq və onları sıxışdırmaq cəhdi kimi qiymətləndirilib.

Gürcüstan kuir təşkilatları təhdidlərə və rəsmi məhdudiyyətlərə baxmayaraq, 2013-cü ildən bəri IDAHOBIT-i müxtəlif etiraz və həmrəylik aksiyaları ilə qeyd ediblər. 2024-cü ilin həmin günündə Gürcü Pravoslav Kilsəsi baş nazir İrakli Qaribaşvili, parlament sədri Şalva Papuaşvili və Tbilisi meri Kaxa Kaladzenin iştirakı ilə "ənənəvi ailə dəyərlərini" təbliğ edən ümummilli yürüşlər təşkil edib. Bu addım dövlətin bu narativə açıq dəstəyini nümayiş etdirib. Bir sıra LGBTİQ+ tədbirləri, xüsusən "4GB" Festivalı, artan düşmənçilik və siyasi təzyiq səbəbindən ləğv olunub. Bərabərlik Koalisiyası və digər insan haqları qrupları hökumətin bu addımlarını IDAHOBIT-in ləğvi və Avropa insan hüquqları standartlarının pozulması istiqamətində məqsədyönlü cəhdlər kimi tənqid ediblər.

Bütün bu dövrdə media ictimai rəyin formalaşmasında mühüm rol oynayıb. Gürcüstanda onlarla onlayn xəbər agentliyi ilə yanaşı, ən azı 97 lisenziyalı televiziya və 29 lisenziyalı radio yayımçısı fəaliyyət göstərir. Onlayn nəşrlərin rəsmi qeydiyyata ehtiyacı olmadığı üçün dəqiq rəqəmlər məlum deyil. Bu mətbuat orqanlarının çoxu hökumətə bağlıdır və tez-tez birbaşa və ya dolayısı ilə dövlətdən maliyyə alırlar. Mətbuatın kiçik hissəsi müstəqildir və beynəlxalq fondlar tərəfindən dəstəklənir, onların yalnız bir neçəsi əsasən kommersiya reklamları vasitəsilə maliyyələşir.

## Monitorinq nəticələrinin xülasəsi

Ötən il olduğu kimi, bu il də monitorinq üçün 10 aktiv fəaliyyət göstərən media platforması seçmişdik: imedinews.ge, interpressnews.ge, qronikaplus.ge, netgazeti.ge, on.ge, iPress.ge, kvirispalitra.ge, alia.ge, radiotavisupleba.ge və publika.ge. Bu platformalardan beşi jurnalistika etikasına riayət etməklə seçilir, digər beşi isə LGBTİQ+ mövzularını işıqlandırarkən jurnalist məsuliyyətini nəzərə

almır. 2024-cü ildə Gürcüstanın mediasında LGBTİQ+ məsələlərinin işıqlandırılması əksərən hakim partiyanın təklif etdiyi və qısa zamanda ictimai müzakirələrin əsas mövzusuna çevrilən “Ailə dəyərlərinin qorunması haqqında qanun” əsasında formalaşıb. Baş nazir İrakli Qaribaşvili LGBTİQ+ vətəndaşların ictimai məkanda varlığını cəmiyyət üçün təhlükə kimi qiymətləndirərək deyib: “Gənc nəsli anti-insan təbliğatından qorumaq lazımdır”. Müxalif və müstəqil KİV-lər qanunu homofob senzura kimi qiymətləndiriblər.

Qanun ətrafındakı müzakirə həm dildə, həm də yanaşmada qütbləşmələrin güclənməsinə səbəb olub. Hökumət “LGBT təbliğatı” kimi ifadələr istifadə edib və tezliklə hakim partiyanın səsinə çevrilən “Qadın qadındır, kişi kişidir” şüarını tirajlayıb. Hökumətyönlü media bu ifadələri heç bir tənqid və kontekst vermədən təkrarlayıb. Neytral və inklüziv dil mediadan yoxa çıxaraq kəskin parçalanmaya yol açıb: bir tərəfdə insan hüquqlarının müdafiəsi, digər tərəfdə manipulyasiya xarakterli narrativlərin qorxu və nifrəti artırması müşahidə olunub.

Yüksək çinli rəsmilərin bəyanatları bir çox hallarda bu əhval-ruhiyyəni daha da qızışdırıb. Məsələn, Qaribaşvili belə bir iddia ilə çıxış edib: “Onlar məktəblərə transseksualları gətirirlər, uşaqlara deyirlər ki, cinslərini dəyişə bilərlər... Bu mövzu cəmiyyətdə bağlanmalıdır” (Imedinews, 31 mart 2024-cü il). Hakim partiyaya bağlı mətbuat orqanları bu cür bəyanatları olduğu kimi tirajlayaraq, fərqli mövqeləri əks etdirməyərək ayrı-seçkilik mühitini gücləndiriblər.

Xüsusilə dəhşətli hal odur ki, qanun layihəsində LGBTİQ+ məzmunu insest və bioloji eksperimentlərlə birlikdə qruplaşdırılıb (Azadlıq Radiosu, 2 sentyabr 2024-cü il), beləliklə kuirlərin mövcudluğu faktiki olaraq cinayət hesab olunub. Netgazeti.ge bu təşəbbüsü siyasi dəstək toplamaq üçün qorxu üzərində qurulan “homofob kampaniyanın” bir hissəsi kimi təsvir edib.

İl boyu ölkədə xüsusilə trans vətəndaşların hədəfə alınması müşahidə olunub. Gürcüstanın keçmiş baş naziri Bidzina İvanişvilinin “Kişilər süd verməyə başlayacaq” ifadəsi (“Azadlıq radiosu”, 22 oktyabr 2024-cü il) hökumətyönlü media tərəfindən trans qadınları ələ salmaq məqsədilə geniş şəkildə və təkrar-təkrar yayımlanıb. Parlament spikeri Şalva Papuaşvili isə belə deyib: “Hətta Britaniyanın baş naziri də indi qadının qadın, kişinin isə kişi olduğunu bəyan edir*” (İnterpressnews, 6 mart 2024-cü il). Bir vaxtlar yalnız marjinal* çevrələrdə *yer alan bu şüar* indi tənqidi yanaşma olmadan bütün media sahəsinə nüfuz edərək *ictimai müzakirələr*də dominant mövzuya *çevrilib.*

2024-cü ildə əsasən diskriminativ yanaşmaların hakim olmasına baxmayaraq,  inklüziv reportajlar və ictimai həmrəyliyə dair nümunələr də gözə dəyib. Simvolik nümunələrdən biri prezident Salome Zurabişvilinin qətlə yetirilmiş trans qadın Kesaria Abramidzenin dəfn mərasimində iştirakı olub, bu davranış bəzi saytlar tərəfindən həmrəylik jesti kimi qiymətləndirilib.

## Yerli və beynəlxalq xəbərlər*




*10 media orqanı, 237 məqalə

***Şəkil 12.*** *Ümumilikdə, bu il Gürcüstanın 10 media orqanından 237 məqaləni nəzərdən keçirmişik. Dünyada LGBTİQ+ məsələlərinə dair xeyli hadisə baş versə də, gürcü mediası məsələni daha çox daxili vəziyyət üzərində cəmləşdirməyi üstün tutub. 2024-cü ilin yanvar-dekabr ayları ərzində çıxan xəbərlərin yalnız 12.7%-i beynəlxalq məsələləri əhatə edib, 87.3%-i yerli hadisələrə diqqət yetirib. Bunun əsas səbəbi Gürcüstanda LGBTİQ+ vətəndaşlarının əleyhinə yeni qanunun qəbul edilməsi və hökumət rəsmilərinin təkrarlanan hücumları da daxil olmaqla davamlı problemlərlə üzləşməsi olub.*

## Qlobal məsələlərin işıqlandırılması




***Şəkil 13.*** *Qlobal məsələlərin işıqlandırılması zamanı ən çox qrafikdə adı çəkilən 5 ölkəyə istinad edilib. Rusiya ən çox işıqlandırılan xarici ölkə olub və Gürcüstanda LGBTİQ+ əleyhinə diskurs üçün əsas ideologiya və qanunvericilik modeli rolunu oynayıb. Rusiya əksər hallarda açıq və ya üstüörtülü şəkildə Qərb liberalizminə qarşı "ənənəvi dəyərləri" müdafiə etməkdə Gürcüstanın nümunə götürməli olduğu ölkə kimi təqdim olunub. "Azadlıq Radiosu", "Netgazeti", "Publika" və "Alia" kimi mətbuat orqanları yerli qanunvericilik səylərinin Kremlin siyasətindən "ilhamlandığını" bildiriblər. Ümumiyyətlə, "İmedi", "Alia" və "iPress" kimi hökumətyönlü media orqanlarında LGBTİQ+ hüquqlarının məhdudlaşdırılmasına dair xarici təcrübələr müntəzəm olaraq dərc olunur. İraqda eynicinsli şəxslərin münasibətlərini 15 ilə qədər həbs cəzası ilə cəzalandıran qanunun qəbul edilməsi və Yunanıstan Pravoslav Kilsəsinin eynicinslilərin nikahına etirazı buna misaldır. Bu narrativləri təqdim etməklə hökumətyönlü media bir növ ölkədə tətbiq olunan məhdudiyyətlərə haqq qazandırmağa çalışır.*

# Xəbərlərin tonu




***Şəkil 14. Xəbərlərin tonu.*** *Builki media monitorinqi qərəzli və problemli məzmunun kəskin artımını göstərir. Yeni tədavülə buraxılmış "LGBT təbliğatı" ifadəsinə 63 materialda rast gəlinib. Bu ifadə həm başlıqlarda, həm də əsas mətnlərdə dırnaq işarəsi olmadan istifadə olunub və ifadənin normallaşmasına şərait yaradılıb. Belə hallar ən çox Interpressnews, Imedinews, Ipress.ge və Alia.ge kimi media orqanlarında müşahidə olunub.*

**İstifadə olunan söz və ifadələr**

- LGBT
- LGBTİQ+, LGBTİ+
- Homoseksual
- Gürcücə təhqiramiz sözlər (pederast, toyuq, cinsi baxımdan çaşqın və s.)
- Eynicinsli
- Trans, transgender
- Cinsi azlıq
- Gey
- Biseksual
- Lezbiyan
- İnterseks
- "Qeyri-ənənəvi oriyentasiya", "qeyri-ənənəvi münasibətlər"
- Üçüncü cins - 0

**Təkrarlanma sayı**




***Şəkil 15.*** *Bu cədvəldə media mətnlərində ən çox istifadə olunan söz və ifadələr sıralanıb. "LGBT" abbreviaturası 168 dəfə təkrarlanmaqla mövzunun ümumi müzakirəsində əsas yer tutub. Gürcü dilindəki təhqiramiz ifadələrə (məsələn, "pederast", "toyuq", "cinsi baxımdan çaşqın" və s.) 20 dəfə rast gəlinib; bu göstərici 2023-cü ildə cəmi 4 olub, yeni alçaldıcı dil istifadəsi 2024-cü ildə kəskin artıb. Qeyd etmək lazımdır ki, 2024-cü ildə siyasi diskursda hökumətin "qadın qadındır, kişi kişidir" şüarı ilk dəfə geniş yayılaraq, xüsusilə "LGBT təbliğatı" mövzusunun müzakirəsində intensiv istifadə olunub.*

| Qərəzli materialların təsnifatı | Məqalələrin sayı |
|---|---|
| Açıq-aşkar kuirfob açıqlamaların və mətnlərin sitat olaraq təqdim edilməsi; kuirfob açıqlamaların müəllifi olan şəxslərin mövqeyi ilə redaksiya və ya jurnalistin mövqeyinin eyni olmadığına dair şərhin verilməməsi | 63 |
| Cəmiyyətə, dövlətə zərər vurmaq və mənfi təsir göstərməkdə günahlandırma | 19 |
| Alçaldıcı və ya təhqiramiz kontekstdə qeydolunma | 17 |
| Oriyentasiyanın, gender mənsubiyyətinin yersiz xatırladılması | 13 |
| Yanlış terminologiya (LGBT nümayəndəsi, cinsi azlıq, cins/gender dəyişikliyi və s.) | 12 |
| Mənəvi pozğunluq, əxlaqsızlıqla bağlı ittihamlar | 12 |
| LGBTİQ+un mənfi imicinin yaradılması (alçaldıcı ton, diskriminativ terminologiya, dil və məzmun, insanları gözdənsalma) | 10 |
| LGBTİQ+un xəstəlik kimi qeyd olunması, xəstəliklərlə assosiasiya edilməsi | 10 |
| Qalmaqallı, sensasiyalı məzmun | 8 |
| Zorakılıq və ayrı-seçkiliklə bağlı çağırışlar | 1 |
| Millətçiliklə kuirfobiyanın birgə təzahürü | 0 |

***Şəkil 16. Kuirfobiyanın təsnifatı.*** *Bu cədvəl Gürcüstan mediasında 2024-cü il ərzində yayımlanmış LGBTİQ+ mövzulu materiallarda rast gələnən kuirfob məzmunun əsas formalarını əks etdirir. Ən nəzərəçarpan nəticə odur ki, media orqanları açıq-aşkar kuirfob olan açıqlamaları heç bir redaksiya qeydi və ya məsafə qoymadan, birbaşa tirajlayıb. Bu halların sayı 33-dən (2023)  63-ə (2024) yüksəlib – bu da ikiqat artım deməkdir. Bu artım xüsusilə onu göstərir ki, bəzi media qurumları LGBTİQ+ əleyhinə ritorikanı yaymaq və legitimləşdirmək məqsədilə bu tip açıqlamalardan alət kimi istifadə edirlər. Redaksiya məsafəsinin olmaması təkcə jurnalistikanın etik standartlarını pozmur, həm də ayrı-seçkilik ritorikasının normallaşdırılmasına və cəmiyyət tərəfindən qəbul olunmasına şərait yaradır.*

## Nümunələrin təhlili

### Nümunə 1: "Təbliğat özünü LGBT kimi tanıdan gənclərin sayını necə artırır – beynəlxalq araşdırmalar nəyi göstərir?"



Cizgi filmi: *Kipo və möcüzəli bədheybətlər dövrü* (Netflix)

**Mətbuat orqanı:** Imedi (*imedinews.ge*)
**Tarix:** 3 mart 2024-cü il
**Müəllif:** Saba Khviçia

Məqalənin əsas tezisi odur ki, LGBTİQ+ kimliyini qəbul edən gənclərin sayının artması "təbliğatın nəticəsi"dir. Müəllif bu iddianı dəstəkləmək üçün "beynəlxalq araşdırmalar"a istinad etdiyini bildirsə də, konkret və etibarlı elmi mənbələr təqdim edilmir. Məqalədə belə bir cümlə yer alır:

*"Beynəlxalq araşdırmalar təbliğatın özünü LGBT icması ilə eyniləşdirən gənclərin sayının artmasına səbəb olduğunu təsdiqləyir".*

Bu yanaşma kuir kimliyini fərdi bir təcrübə kimi yox, xarici ideoloji təsirlərin, "psevdo-liberal təbliğatın" məhsulu kimi çərçivələyir, LGBTİQ+ kimliyi manipulyativ təsir kimi təqdim olunur. Bu, oxucuya elmi və obyektiv mövqe kimi sırınsa da, əslində siyasi məqsəd daşıyan narrativdir.

Məqalədə uşaq animasiya serialından ("*Kipo və möcüzəli bədheybətlər dövrü*") bir obraz vurğulanır və kuir kimliyin uşaqlar üçün "təhlükə mənbəyi" olması mesajı verilir. Belə emosional və ideoloji yüklü yanaşma cəmiyyətdə panika yaratmağa xidmət edir və kuirləri "təhlükəli", "aldadıcı" və "zərərli" kodlarla təqdim edir. Bu xəbər qorxu və qərəz üzərində qurulmuş ritorikadan ictimai rəyə təsir etmək üçün necə istifadə edildiyini açıq şəkildə göstərir.

## Nümunə 2: Kesaria Abramidzenin qətlinin Gürcüstan mətbuatında işıqlandırılması


NEWS
სამართალი
19 სექტემბერი 2024, 03:00 / სანდო წყარო
„ქრონიკის“ ინფორმაციით, კესარია აბრამიძის მკვლელობაში ბრალდებული დაკავებულია
ფოტო: Facebook
„ქრონიკის“ ინფორმაციით, კესარია აბრამიძის მკვლელობაში ბრალდებული დაკავებულია.


NEWS
18 სექტემბერი 2024, 21:05 / სანდო წყარო
კესარია აბრამიძე მოკლეს - სავარაუდო ეჭვმიტანილი მისი მეგობარი მამაკაცია
ფოტო: Facebook
თბილისში, დიდ დიღომში კესარია აბრამიძე მოკლეს. გავრცელებული ინფორმაციით, კესარია აბრამიძე მეგობარმა მამაკაცმა მოკლა.
შინაგან საქმეთა სამინისტროს ინფორმაციით, მომხდარ ფაქტთან დაკავშირებით გამოძიება სსკ-ის 108-ე, განზრახ მკვლელობის მუხლით დაიწყო. ადგილზე საგამოძიებო მოქმედებები მიმდინარეობს.

**Media orqanı:** Imedi (imedinews.ge)

**Tarix:** Sentyabr, 2024-cü il

2024-cü ilin sentyabrında gürcü trans model Kesaria Abramidzenin qətli həm yerli, həm də beynəlxalq mediada geniş rezonans doğurdu. “*BBC*”, “*Guardian*”, “*Al Jazeera*”, “*AP News*” və “*Politico*” kimi nüfuzlu nəşrlər hadisəni geniş şəkildə işıqlandıraraq vurğuladılar ki, bu zorakılıq aktı Gürcüstan parlamentinin LGBTİQ+ əleyhinə qanun layihəsini qəbul etdiyi həftəyə təsadüf edir. Beləliklə, xəbər resursları qətl ilə siyasi kontekst arasında mümkün əlaqəyə işarə edərək ölkədə LGBTİQ+ vətəndaşların təhlükəsizliyi ilə bağlı ciddi narahatlıqları gündəmə gətirdilər.

Bunun əksinə olaraq, *imedinews.ge*, *interpressnews.ge*, *alia.ge* və *ipress.ge* kimi bir neçə gürcü media orqanı bu iki hadisənin üst-üstə düşməsi faktı ilə bağlı heç bir xatırlatma etməyib, hadisəni sırf kriminal hadisə kimi tirajladılar. Bu xəbər resursları diqqəti əsasən hadisənin təfərrüatlarına – qətlin hansı şəraitdə baş verməsinə və şübhəlinin həbsinə yönəltdilər, geniş ictimai-siyasi kontekstdən yayınaraq zorakılıqla mövcud siyasi atmosfer arasındakı əlaqəni gözardı etdilər.

Belə bir redaksiya yanaşması, yəni zorakılıq aktlarını sosial və siyasi şəraitdən ayıraraq neytral kriminal hadisə kimi təqdim etmək sistematik ayrı-seçkiliyi görünməz edir, dolayısı ilə də bu cür zorakılığın normallaşmasına xidmət edir.

## Nümunə 3: “Kişi kişi, qadın qadındır”: Rişi Sunakın bəyanatından “Gürcü arzusu”nun seçki şüarına qədər







2023-cü il oktyabrın 4-də Böyük Britaniyanın baş naziri Rişi Sunak gender kimliyi ilə bağlı sərt çıxışı ilə manşetləri zəbt edib. Mühafizəkarlar Partiyasının illik konfransında çıxış edən Sunak “kişi kişidir, qadın isə qadındır – bu sadəcə sağlam düşüncədir” deyib, “Bizi insanların istədikləri cinsdən ola biləcəyinə inanmağa məcbur etməməlidirlər”, – deyə əlavə edib.

Bu ifadə qısa müddət ərzində dünyaya yayılaraq 2024-cü ilin əvvəlində Gürcüstanda da siyasi ritorikanın bir hissəsinə çevrilib. Hakim “Gürcü arzusu” partiyası və onun nümayəndələri Sunakın sözlərini mənimsəyərək, bu ifadəni gender və ailə məsələlərində mövqelərini sərtləşdirmək üçün əsas ideoloji şüarlardan biri ediblər. 2024-cü il martın 6-da parlamentin sədri Şalva Papuaşvili də daxil olmaqla bir sıra rəsmi şəxslər çıxışlarında bu sitata yer veriblər. Daha sonra bu ifadə hökumətyönlü mediada eyni ideoloji çərçivədə dəfələrlə təkrarlanıb.

Bioloji determinizmə əsaslanan bu cümlə Gürcüstanda tədricən siyasi diskursun mərkəzi hissəsini tutub. “Gürcü arzusu” bu şüardan istifadə edərək gender kimliyini “ənənəvi milli dəyərlərə” qarşı təhlükə kimi təqdim edib. Bu ritorika eyni zamanda “Qərbin liberal dəyərlərinin Gürcüstana idxalı”-na qarşı çıxmaq və Avropa təsirlərinə müqavimət göstərmək üçün vətənpərvər mübarizə forması kimi çərçivələndirilib və lokal siyasi kontekstdə “Gürcü suverenliyini qorumaq” arqumenti ilə birləşdirilərək mühafizəkar ideoloji cəbhənin alətinə çevrilib. Beləliklə, “kişi kişidir, qadın qadındır” kimi tezislər təkcə daxili siyasi gücün konsolidasiyası üçün deyil, həm də qlobal kuir hüquqlarına qarşı qlobal mühafizəkar şəbəkənin bir parçası kimi işləyir.

Sözügedən ifadə artıq təkcə “bioloji həqiqət” iddiası deyil, həm də polarizasiya yaradan, LGBTİQ+ vətəndaşları görünməz və qeyri-legitim edən simvolik silaha çevrilib. Parlament debatlarında, mətbuat konfranslarında və sosial şəbəkə paylaşımlarında tirajlanan bu şüar mürəkkəb insan təcrübələrini, gender müxtəlifliyini inkar edən və susduran ideoloji çağırış funksiyası daşıyır.

| | | | | |
|---|---|---|---|---|
| **BAŞLIQ** | **BAŞLIQ** | **BAŞLIQ** | **BAŞLIQ** | **BAŞLIQ** |
| **“Gəncləri qeyri-insani təbliğatdan qorumaq lazımdır” – Qaribaşvili LGBT əleyhinə qanun haqqında** | **“Onlar çıxıb bizi inandırmağa çalışırlar ki, ağ qaradır, şəffaflıq pisdir və LGBT təbliğatı yaxşıdır” - Kaladze** | **Bidzina İvanişvili: “İnsanlar kim olduqlarını bilməməlidir - bu, köləliyin ən yeni alətidir”** | **Baş nazir: “Bir çox ölkədə istənilən kişi qəfildən özünü qadın kimi qeydiyyatdan keçirə, sonra isə yenidən kişi ola bilər – biz hesab edirik ki, bu, tamamilə iryənclikdir”** | **Bassiani klubunda gizli görüş – gecə vaxtı “Tbilisi Pride”, digər QHT-lər və müttəfiqlər bir məkana toplaşdılar** |
| **2 Mart, 2024**<br>On.ge | **29 Aprel, 2024**<br>Alia.ge | **22 Oktyabr, 2024**<br>Interpressnews | **7 Noyabr, 2024**<br>Interpressnews | **25 Dekabr, 2024**<br>Imedinews / Primetime.ge |
| **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** | **MÖVZU / HADİSƏ** |
| Baş nazir Qaribaşvili LGBTİQ+ əleyhinə qanunu milli dəyərlərin qorunması və uşaqların müdafiəsi kimi təqdim edir. O bu qanunu əsaslandırmaq üçün qorxu, “qeyri-insani təbliğat” ifadəsini və vətənpərvərlik ritorikasını istifadə edir. | Tbilisi meri Kaladze kuir hüquqlarının müdafiəsini yalan və xaosla eyniləşdirir. Bu, dövlətin insan hüquqlarına qarşı hücum siyasətinin media qurumlarının gündəmini zəbt etməsi ilə bağlı növbəti açıq nümunədir. | İvanişvili kuirliyi sosial mühəndislik nəticəsi kimi təqdim edir, müxtəlifliyi cəmiyyəti zəiflətmək üçün istifadə edilən alət kimi göstərir. Beləcə, fərqli qruplara qarşı qıcıq və nifrət toxumu səpir. | Baş nazir gender kimliyinin hüquqi olaraq tanınmasını iyrənclik kimi qələmə verir, bu məsələni qeyri-ciddi, hətta təhlükəli meyil kimi göstərməyə çalışır. Belə xəbər başlıqları anti-kuir ritorikanın yayılması və legitimləşdirilməsi üçün vasitəyə çevrilir, cəmiyyətin konservativ qruplarını hərəkətə gətirməyə və diskriminasiya siyasətini “mənəvi dəyər” kimi təqdim etməyə xidmət edir. | Başlıq insan haqları mövzusunda keçirilən görüşü gizli və təhlükəli tədbir kimi təqdim edir, fəalları “gizli sui-qəsdçilər” kimi qələmə verir. Bu cür yanaşma ictimaiyyətdə şübhələri artırır, vətəndaş cəmiyyəti və insan haqları müdafiəçiləri əleyhinə mənfi əhval-ruhiyyənin yaranmasına xidmət edir. |
| | | | Interpressnews | Primetime.ge |

***Şəkil 17: Qərəzli başlıqlar.*** *2024-cü ildə Gürcüstan mediasında yer alan sərlövhələr gender mövzusunda dövlətin anti-LGBTİQ+ siyasətini yaymaq üçün əsas vasitə kimi istifadə olunub. Nümunələrdən də göründüyü kimi, kuirfob media qərəzli çıxışları diqqət mərkəzinə qoyaraq geniş şəkildə tirajlayıb. Heç bir tənqidi yanaşma olmadan, siyasi liderlərin sitatlarını ön plana çıxarmaqla və həyəcan təbili çalmaqla bu başlıqlar kuirfob ideologiyanın normal qəbul edilməsində birbaşa rol oynayır.*

*Xəbər sərlövhəsi üçün hansı sitatın seçilməsi oxucuda ilkin əhvali-ruhiyyəni müəyyən edir. Başlıqlara diskriminasiya, yanlış məlumat və qorxu yayan sitatlar yerləşdirilməsi həmin zərərli ideyaların legitimləşməsinə və daha geniş yayılmasına şərait yaradır.*

## Nəticə

Gürcüstanda LGBTİQ+ hüquqları sahəsində baş verən ciddi geriləmələr bu il apardığımız media monitorinqində aydın şəkildə öz əksini tapıb. “Ailənin müdafiəsi və uşaqların hüquqları” haqqında qanunun qəbul olunması yalnız insan haqları və inklüzivlik sahəsində deyil, mediada bu mövzularda yaranan diskursu da kəskin şəkildə dəyişib. Bu qanunun qəbul edilməsiylə ayrı-seçkilik hüquqi zəminə keçib, mediada LGBTİQ+ vətəndaşlara qarşı nifrət və düşmənçilik ritorikası legitimləşdirilib və onun geniş yayılmasına şərait yaradılıb.

Hakim “Gürcü arzusu” partiyası ilə əlaqəli olan media qurumları hökumətin kuirləri “ənənəvi dəyərlərə” təhdid kimi təqdim edən ritorikasını daha da gücləndirib. Qanun mediaya və təhsil sahəsinə senzura gətirərək “LGBT təbliğatı” hesab olunan məzmunun yayımını qadağan edib və qeyri-heteronormativ münasibətlərin təşviqinə görə cəzalar nəzərdə tutub. 2013-cü ildə Rusiyada qəbul olunan analoji qanunvericiliyə əsaslanan bu tədbirlər beynəlxalq insan haqları təşkilatları tərəfindən kəskin tənqid olunub. Hökumətyönlü media və sosial platformalar isə LGBTİQ+ hüquqları uğrunda çalışan təşkilatları “xarici təsir agentləri” və milli kimliyə təhdid faktorları kimi təqdim edib.

Bütün bu çətinliklərə baxmayaraq, bir sıra müstəqil media qurumları və tənqidçi jurnalistlər LGBTİQ+ mövzusunu daha balanslı və məsuliyyətli şəkildə işıqlandırmağa çalışıblar. “Tbilisi Pride” və digər onlayn platformalar kuir icma daxilində şəxsi hekayələri, maarifləndirici resursları yaymaqla dominant neqativ diskursa qarşı alternativ təcrübələr təqdim ediblər. Bu təşəbbüslər daha əhatəli və empatiyaya əsaslanan ictimai müzakirələrin yaranmasına töhfə verməyə çalışıb. Bununla belə, geniş yayılan qorxu və senzura mühiti bir çox jurnalistin özünüsenzura tətbiq etməsinə səbəb olub ki, bu da mediada bu mövzunun obyektiv işıqlandırılmasını məhdudlaşdırıb.

Ümumilikdə, monitorinq göstərir ki, dövlətin siyasi iradəsi və hökumətyönlü media strukturlarının birgə fəaliyyəti LGBTİQ+ hüquqlarını açıq hədəfə çevirib, cəmiyyətdə dözümsüzlük və qorxu mühitinin

dərinləşməsinə səbəb olub. Bununla yanaşı, müstəqil və tənqidi səslərin inadla fəaliyyətini davam etdirməsi Gürcüstanda hələ də jurnalist etikası, insan hüquqları və plüralizm dəyərlərinin tamamilə məhv edilmədiyini göstərir.

queeradar
MEDİANIN QUEER MONİTORİNQİ

# Cənubi Qafqaz mətbuatında LBTİQ+ əleyhinə nifrət nitqinin monitorinqi

**VI buraxılış**
**Yanvar - Dekabr 2024-cü il**